

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dünyaya vəsiqə almış irsimiz



8

№ 225 (6908)

# SƏS

8 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan 32 erməni hərbçini azad edir



2

*Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması*

# Ən doğru addım!



2

*Suverenliyini tam bərpa etmiş Azərbaycan prezident seçkilərinə gedir*

## Torpaq sahələrinin özəlləşdirilməsi üçün vətəndaşlar NƏ ETMƏLİ?



12

## Seçki qərarından sonra Əli Kərimlinin evində separatçıların görüşü təşkil olunub



12

## Dövlət qulluğu nədir - Kimlər dövlət qulluqçusu ola bilər?



16

## Uşaqlar televizora baxsın, ya baxmasın?



13

## O sudan içməyin!



9

# Ən doğru addım!

## *Suverenliyini tam bərpa etmiş Azərbaycan prezident seçkilərinə gedir*



***2003**-cü ildən bəri Azərbaycandan 4 prezident seçkiləri keçirilib. Hər seçki Azərbaycan xalqı üçün imtahan və sınaq olub da deyə bilərik. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi dönəmlərdə xarici qüvvələr daxildəki radikal və pozucu, əsasən də xaricdən göndərilən maliyyə hesabına özlərini elektorat sahibi kimi təqdim edənlərlə birləşib ölkəmizdə xaos yaratmaq niyyətini gizlətmirdilər. Həmin qüvvələr bu gün də fürsət gözləyirlər, marıqda yatıblar. İmkan düşən kimi hərəkətə keçəcəkləri bəllidir. Onlar müəyyən partiyalarda, qeyri-hökumət təşkilatlarında və digər strukturlarda təşkilatlanıblar. Vətən, millət anlayışı əldə edəcəkləri paranın, milyonların qarşısında arxa plana keçib.*

Azərbaycan həmin qüvvələrə ağalıq edənlərin məqsədlərini qursaqlarında qoyaraq öz torpaqlarında suverenliyini bərpa etdi. Həmin mərkəzlərin bizə qarşı mübarizələrində qırmızı bir xətt keçir. Qarabağ münaqişəsini Azərbaycanın maraqlarına uyğun həll etməməklə, ya da buna mane olmaqla müxaliflərin əlinə oynamış olurdular. Müxalifətin ən böyük və əllərində bayraq etdikləri bayağı, sifarişli bir tezis var idi ki, bud a Qarabağın azad edilməməsi idi. Bəzi müxalif qüvvələrlə Ermənistan hakimiyyəti və onların xaricdəki havadarları arasında bir bağlılıq, işbirliyi var idi, onlar sinxron hərəkət edirdilər. Bu gün isə Azərbaycan həmin şər yuvasının bütün planlarını pozub, ərazi bütövlüyünü təmin edib, qalib ölkədir, güclüdür, həm daxildən, həm xaricdən gələn təhlükələrə cavab verməh iqtidarındadır.

Nəhayət, ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən Azərbaycanda ilk dəfə prezident seçkiləri keçiriləcək. Prezident İlham Əliyev Azərbaycanda növbədənkənar Prezident seçkilərinin keçirilməsi ilə bağlı Sərəncam imzaladı. Mərkəzi Seçki Komissiyası növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin edəcək. Prezident İlham Əliyev 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra xalqımızın qarşısında duran ən mühüm problem – ərazi bütövlüyümüzün bərpası prosesinin son tamamlayıcı mərhələsinə start verdi və qısa zamanda ölkəmizin, xalqımızın bütün potensialını vahid məqsəd uğrunda səfərbər etdi.

Prezident seçildikdən cəmi iki il sonra Azərbaycan tarixi qələbə qazanaraq torpaqlarını işğaldan azad etdi, daha sonra isə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası prosesi tamamlandı. İlk dəfədir ki, müstəqil Azərbaycanda seçkilər bütün ölkə ərazisində keçiriləcək. Əlbəttə, bu gözlənilən idi.

2024-cü ildə dünyanın 70-dən çox ölkəsində seçkilər keçiriləcək və 4,5 milyard insanın sandıq başında öz namizədinə səs verəcək. Son zamanlar region ölkələrinin bir çoxunda növbədənkənar prezident seçkiləri keçirilib. 12 mart 2022-ci ildə Türkmənistanda, 2022-ci ilin payızında Qazaxıstanda, 2023-cü il iyulunda isə Özbəkistanda növbədənkənar prezident seçkiləri təşkil edilib. Bu mənada rəsmi Bakının da analoji addımı atması təbiidir.

2024-cü ilin dövlət büdcəsindən seçkilərin keçirilməsi və statistika tədbirləri üçün 110 milyon 935 min 344 manat ayrılıb. Bu fakt da növbədənkənar seçkilərin olacağına işarə idi. Həm də, 2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatıb. 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri isə ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpası prosesini tamamladı. Dünya təcrübəsində belə üstünlüyün seçki prosesində istifadə edilməsi təbiidir.

Gələn il dünyanın aparıcı dövlətləri də president seçkilərinə gedəcək. 2024-cü il martın 17-də Rusiyada, 2024-cü il noyabrın 5-də isə ABŞ-da səsvermənin baş tutacağına hazırlıq gedir. Hər iki seçkilər dünyanın diqqət mərkəzindədir. Buna görə, Cənubi Qafqaz regionuna diqqət azalacaq. Rəsmi Bakının ABŞ və Rusiyadan əvvəl seçkilərə getməsi qloblal proseslərə hazırlığı baxımdan önəm daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Qarabağda münaqişə başa çatıb. İlham Əliyev Qalib Ordunun Müzəffər Ali Baş Komandanıdır, xalqın maraqlarını təmin edən, ölkəmizi gələcəyə uğurla və növbəti qələbələrlə apara bilən, buna qadir dövlət başçısıdır. Hər bir vətəndaşın qayğısına qalır, problemlərini yaxından hiss edir. Bütün bunlar əlbəttə, bəzi dairələri narahat edir. Azərbaycanın daxili siyasi müstəvisinə təsir etmək istəyən qüvvələrin aktivləşəcəyi gözlənilir. Proses başladığını da deyə bilərik. Pozucu ünsürlərin bütün planlarını önləmək üçün çevik və ağıllı addımların atılması təhlükəsizliyimizin qorunması nöqteyi-nəzərindən önəmlidir. Bu mənada atılan addım yerində və doğrudur.

**V.VƏLİYEV**

# Azərbaycan 32 erməni hərbçini azad edir

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı birgə açıqlama yayıb. AZƏRTAC açıqlamanı təqdim edir: "Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub. Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini azad edir. Ermənistan Respublikası öz növbəsində humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 2 azərbaycanlı hərbçini azad edir.

Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir.

Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar".



*Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması*

# Azərbaycan ilə Ermənistan arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi barədə razılıq əldə olunub

## *Siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri daxil deyil*

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbiri kimi Azərbaycan tərəfindən ermənəsilli 32 şəxsin, Ermənistan tərəfindən isə 2 Azərbaycan hərbçisinin azad edilməsi barədə razılıq əldə edilib. AZƏRTAC xəbər verir ki, Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfər (26 nəfər 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş şəxslər, qalan 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslər) artıq cəzalarının böyük hissəsini çəkiblər.***

Otuz iki nəfərlik siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan, o cümlədən Vaqif Xaçaturyan, Alyoşa Xosrovyan kimi şəxslər daxil deyil və ola da bilməz.

Bu addım Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir. Prezident İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir. Xüsusilə vurğulanmalıdır ki, bu razılaşma Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib. Bu, bir daha göstərir ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesini irəli apara bilərlər.

# "Əliyev açıqladı: Sülh müqaviləsinin prinsipləri tərtib edilib Ermənistana göndərilib"



***Prezident İlham Əliyevin ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi fikirlər dünya KİV-lərinin diqqəti mərkəzində qalmaqdadır. Belə ki, ərəb ölkələrinin media orqanları dövlətimizin başçısının fikirlərinə geniş yer verib.***

"Əxbar Əl Yom" və "Əlbaatmedia" qəzetləri, "Qpress8" internet nəşri, SANA və NNA informasiya agentlikləri, həmçinin bir sıra digər saytlar Azərbaycanın dövlət başçısının məşhur beyin və tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi Forumda qlobal və regional problemlərlə bağlı söylədiyi fikirlərə geniş yer ayırıb.

Ərəb ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Azərbaycan Prezidenti 44 günlük Qarabağ müharibəsi və təxminən üç ildən sonra aparılan lokal xarakterli antiterror tədbirlərinin əsas səbəbinin Ermənistanın uzun illər davam edən danışıqlar prosesində qeyri-konstruktiv mövqeyi olduğunu bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz gücü ilə İrəvanın məhəl qoymadığı və yerinə yetirməkdən imtina etdiyi BMT qətnamələri və digər beynəlxalq sənədlərin müddəalarını yerinə yetirdi.

Azərbaycan Prezidentinin Ermənistanla sülhə nail olunması üzrə təşəbbüslər haqqında fikirlərini şərh edən ərəb mediası yazıb ki, dövlət başçısı vaxtilə Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyinə ümid etdiyini də bildirib. O əlavə edib ki, lakin orada dırnaqarası hakimiyyəti inhisara götürmüş adamlar buna imkan vermədilər. Yazılarda vurğulanıb ki, Prezident İlham Əliyev Ermənistanla davamlı sülhə nail olunmasının başlıca amilinin İrəvanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi olduğunu bildirib.

Türkiyənin "Star" saytında yayımlanan "Əliyev açıqladı: Sülh müqaviləsinin prinsipləri tərtib edilib Ermənistana göndərilib" sərlövhəli materialda dövlətimizin başçısının Fransa və Hindistanın Ermənistanı silahlandırması ilə bağlı fikirləri yer alıb. Məqalədə Prezident İlham Əliyevə istinadla qeyd olunub: "Ermənistanda reallıqdan uzaq xülyalar yaradır ki, guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər. Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə, onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir. İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın öz bəyanatlarına görə, erməni ordusunda döyüş meydanında 12 min fərari oldu".




Yazıda, eyni zamanda, Prezident İlham Əliyevin Qranada görüşünə getməməsinin səbəbləri, Naxçıvan vasitəsilə Türkiyəyə çıxışın əldə edilməsi ilə bağlı İran ərazisindən yolun çəkilməsi, Avropa Parlamentində populist insanların olması ilə bağlı fikirləri oxuculara çatdırılıb. Dövlətimizin başçısının fikirlərinin geniş işıqlandırıldığı "Son dakika.com" saytında dərc olunan "Ermənistan indi onları qəbul etməyə daha hazır görünür" sərlövhəli yazıda isə Azərbaycan Prezidentinin ölkəmizin Ermənistana təklif etdiyi beş prinsiplə bağlı fikirlərinə geniş yer verilib. Yazıda bildirilib: "...Beləliklə, biz o məşhur beş prinsipi açıqladıq ki, Ermənistan indi onları qəbul etməyə daha hazır görünür. Əgər üç il əvvəl onları qəbul etsəydilər və ya əsasən qəbul etsəydilər, antiterror tədbirlərinə ehtiyac qalmayacaqdı".

Məqalədə, həmçinin Azərbaycan Prezidentinin "...düşünürəm, biz sülh gətirmişik. Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu" fikirləri oxuculara təqdim olunub.

"Sülh sazişinə gəldikdə, düşünürəm ki, hazırda biz buna yaxınıq, çünki prosesi başladığımız zaman narazılıq doğuran məsələlərdən biri erməni tərəfinin dırnaqarası "Dağlıq Qarabağ respublikası"na sülh sazişində istinad etmək cəhdləri ilə bağlı idi və bunu biz, əlbəttə ki, qəbul edə bilməzdik. Onlar istəyirdilər ki, həmin məsələni müxtəlif söz birləşmələri vasitəsilə sazişə salsınlar, lakin onlar yenə də təxminən eyni alınırdı. Bizim yanaşmamız belədir ki, biz onu qeyd edə bilmərik və iki ölkə arasında razılaşma tam qarşılıqlı olmalıdır". Dövlətimizin başçısının bu fikirləri isə "Akdeniz gerçek" saytında yayımlanan məlumatda yer alıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Forumda çıxışı zamanı səsləndirdiyi fikirlər Serbiyanın nüfuzlu kütləvi informasiya vasitələri tərəfindən də geniş işıqlandırılıb.

***Prezident İlham Əliyevin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzində qalmaqdadır***

Bu ölkənin "RTV", "Tanjug", "NSPM", "Novosti", "Politika", "Pravda", "Vesti", "PRVA", "b92", "Intermagazin" kimi informasiya agentlikləri və xəbər portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin çıxışında Azərbaycanın xarici siyasət konsepsiyasında Avropa İttifaqının üzvü olmağı hədəfləmədiyini vurğuladığı bildirilir.



Azərbaycan Prezidentinin çıxışına istinadla qeyd olunur ki, bu, çox praqmatik yanaşmadır. Çünki Azərbaycanı heç vaxt qəbul etməyəcəklər. Bunun səbəbi də bəllidir. Prezident İlham Əliyevin bu fikirləri sitat gətirilib: "Düşünürəm ki, Azərbaycanın xarici siyasət konsepsiyasında çox praqmatik səbəblərə görə Aİ-yə üzv olmaq hədəfi yoxdur, çünki bizi heç vaxt qəbul etməyəcəklər. Əgər qəbul edilməyəcəksinizsə, niyə qapını döyməlisiniz? Biz münasibətləri necə qurmağın yolunu tapmışıq".

Yazılarda, həmçinin Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşı olduğu, ölkəmizin İttifaqın doqquz üzvü ilə strateji tərəfdaşlığa dair bəyanatlar qəbul etdiyi və xarici ticarətin təqribən 50 faizini Aİ ilə apardığı bildirilir. Gürcüstan mediası Prezident İlham Əliyevin Forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlərdən xəbərlər yaymaqda davam edib.

Belə ki, "apsny.ge", "interpressnews.ge", "ambebi.ge", "realnews.ge", "kavkasia.net", "adjaratv.ge" portalları, "1tv.ge", "maestro.ge", "rustavi2.ge" və digər televiziya kanalları Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan münasibətlərinə dair fikirlərinə geniş yer verib. Dövlətimizin başçısının çıxışından sitatla verilən materiallarda deyilir: "Gürcüstanın Aİ-yə üzv olmaq istəyi ilə bağlı onu deyə bilərəm ki, biz bunu başa düşürük və Gürcüstana uğurlar arzulayırıq". Materiallarda Prezident İlham Əliyevin Azərbaycan və Gürcüstan Avropada vahid komanda kimi təmsil oluna bilmələrinə dair fikrinə daha çox diqqət yetirilib.

Eyni zamanda, dövlətimizin başçısına istinadla bildirilib: "Gürcüstan və Azərbaycan yaxın tərəfdaşlardır. Əlbəttə ki, bizim tərəfdaşlığımız enerji sahəsində əməkdaşlıqdan daha da genişdir. Baxmayaraq ki, bu əməkdaşlıq bizə özümüzü Avropada strateji əhəmiyyət kəsb edən güclü komanda kimi təqdim etməyə imkan verdi". Bundan başqa, materiallarda Azərbaycan Prezidentinin dövlətimizin başçısının Cənubi Qafqazda regional inteqrasiya üçün məsləhətləşmələrə başlamaq şansının olması barədə fikirləri də geniş yer alıb.

Ümumilikdə gün ərzində Gürcüstan mediasında Azərbaycan Prezidentinin Forumdakı çıxışı ilə bağlı 20-dən çox material və reportaj yayımlanıb.

"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu, Prezident İlham Əliyevin tədbirdə səsləndirdiyi fikirlər Ukrayna mətbuatının da diqqət mərkəzində olub. Bu ölkənin "Strana.ua", "Antikor", "Pozitsiya" xəbər portallarında nəşr olunan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın qərb rayonları və Naxçıvan arasında bağlantı təmin edilməsinə dair fikirləri yer alıb.




Yazılarda dövlətimizin başçısının bu fikirlərinə diqqət çəkilib: "Mən Ermənistanın baş naziri ilə dəfələrlə söhbət etmişəm və soruşmuşam ki, niyə onlar öz öhdəliklərini yerinə yetirmirlər. doqquzuncu maddədə aydın şəkildə qeyd olunur ki, Azərbaycanın qərb rayonları və Naxçıvan arasında bağlantı təmin edilməlidir və hətta yazılır ki, orada nəzarət və təhlükəsizliyi kim təmin edəcək. Bunu cənab Paşinyanın özü imzalayıb. İndi isə o, nə bu marşrutu, nə də ki, Rusiyanın bu işdə iştirakını istəyir. Əslində, hüquqi nöqteyi-nəzərindən, bunun artıq mahiyyəti çox deyil. Bu, onun öhdəliyidir. Biz nə edə bilərik? Biz yalnız onu deyə bilərik ki, onlar öhdəliyini pozurlar".

Məqalələrdə, həmçinin Prezident İlham Əliyevin sülh sazişinə dair fikirləri də yer alıb. "Düşünürəm ki, sülh sazişindən danışarkən bunun yalnız formal tərəfini fikirləşməməliyik. Bizə, əslində, nə lazımdır, yəni, Azərbaycana nə lazımdır? Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır. Bu, bizə niyə lazımdır? Çünki biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var", - deyə dövlətimizin başçısından sitat gətirilib. "Bloomberg", "Financial Post" və digər mətbu orqanlarında "Azərbaycan silah tədarükünün doğurduğu müharibə riski ilə bağlı Ermənistana xəbərdarlıq edir" mövzulu materiallar dərc edilib.

Məqalələrdə qeyd edilir ki, Azərbaycanın dövlət başçısı öz çıxışında Fransa və Hindistanı Ermənistana təhlükə hesab etdiyi silahlarla təmin etməmək barədə xəbərdarlıq edib və belə tədarüklərin regionda yeni müharibəyə səbəb ola biləcəyini deyib. Eyni zamanda Ermənistanın adıçəkilən ölkələrdən silah-sursat almağa başlayacağı təqdirdə, Azərbaycan öz əhalisini qorumaq üçün reaksiya verməli olacaq. Məqalələrdə xüsusilə diqqətə çatdırılır ki, üç ay bundan əvvəl Qarabağda əməliyyat keçirən Azərbaycanın Ermənistanı işğal etmək niyyəti yoxdur. Diqqətə çatdırılır ki, Qarabağdakı uğursuzluqdan sonra Ermənistan Moskvadan uzaqlaşaraq başqa yerdə dəstək axtarır. Son aylarda İrəvan hökuməti Fransa və Hindistanla hava hücumundan müdafiə sistemləri və zirehli maşınlar da daxil olmaqla silahların alınması üçün müqavilələr imzalayıb.




Həmçinin materiallarda ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Braynın çərşənbə günü Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanla sülh sazişi üzrə danışıqlar aparmaq üçün Bakıya səfərinə də toxunulub. Qeyd edilib ki, Azərbaycan dövlət başçısı Ermənistanın yeni silah tədarükü ilə cəsarətlənərək Qarabağa gələcəkdə iddialar qaldırmayacağına dair "ciddi təminat" verilməli olduğunu vurğulayıb.

# Bütöv Azərbaycanın ilk Prezident seçkilərinə doğru

***2020-ci ilin 8 noyabrı Azərbaycan tarixinin səhifələrinə qırmızı xətlə düşmən Ermənistan üzərində Böyük Zəfəri yazdısa, 2023-cü ilin 20 sentyabrı Böyük Zəfərin davamı olaraq lokal antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və süverenliyimizin tam bərpası oldusa, qarşıdan gələn 2024-cü ilin 7 fevralı isə şanlı tariximizə bütöv Azərbaycanda ilk Prezident seçkilərinin keçirildiyi gün kimi yazılacaq.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" 7 dekabr 2023-cü il tarixli Sərəncamı ilə fevral ayında Azərbaycan vətəndaşları seçki məntəqələrinə yollanaraq uzun illərdir, ölkəmizdə həyata keçirilən şəffaf və obyektiv seçki qaydası əsasında öz seçimlərini edərək ölkə Prezidentini seçəcəklər. Necə ki, 2020-2023-cü illər torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün tam təmin olunması ölkə vətəndaşları tərəfindən qürur və sevinclə qarşılandı, seçki ilə bağlı yeni Sərəncam da eyni hisslərlə qarşılandı. Çünki ilk dəfə bütöv Azərbaycanda seçki keçiriləcək ki, bu da hər bir vətəndaşın uzun illərdən bəri gözlədiyi zamandır.

## 2018-ci il: sonuncu Prezident seçkilərindən ötən dövrdə

Xalq 2018-ci ildə ölkədə növbəti Prezident seçkilərində iştirak etməklə öz liderini seçdi. Ümummilli Liderimiz Heydər Əliyevin siyasi və mənəvi varisi cənab İlham Əliyev xalqın seçimi ilə yenidən Prezident seçildi və qarşıda duran ən mühüm problemin- ərazi bütövlüyümüzün bərpası prosesinin son mərhələsinə start verdi.

Dekabrın 6-da "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib Prezident İlham Əliyevin Links Avropa Fondunun direktoru niderlandlı Denis Sammutun "Cənab Prezident, tarix sizi 2020-ci il Qarabağ müharibəsində qalib gəlmiş Lider kimi xatırlayacaq. Həmin Qələbə bir çox cəhətdən Sizin prezidentliyinizin dəst-xəttini müəyyənləşdirdi" ifadələrinə cavabı dövlət başçısının nəinki 5 il əvvəl, ötən 20 ilin başlanğıcındakı iradəsinin tərənnümü oldu: Müsahibələrin birində demişdim ki, əraziləri azad etmək mənim siyasi həyatımın əsas məqsədini təşkil edir və fəxr edirəm ki, bu məqsədlərə nail olunub. Necə xatırlanacağım bir çox amillərdən asılı olacaq. Düzünü desəm, bu barədə düşünməyə belə vaxtım yoxdur. Bu barədə düşünsəm də, buna təsir etmək mənim iradəmdən asılı deyil. Sülhlə bağlı onu deyə bilərəm ki, düşünürəm, biz sülh gətirmişik. Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. Hərbi yolla sülhə necə nail olmaq olar? Uzun illər danışıqlar və işğal zamanı mən Minsk qrupunun həmsədrlərindən eşidirdim, onlardan üçü bir ağızdan qeyd edirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Belə məlum oldu ki, onların hər üçü səhv edirdi. Dövlətçilik tarixinə, geniş beynəlxalq təcrübəyə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasına baxmayaraq, onlar yanılırdılar. Düşünürəm ki, ya sadəcə, yanlış qiymətləndirdiklərinə görə yanılırdılar, ya da bu, Azərbaycana bir növ mesaj idi ki, siz sülh ssenarisindən başqa ssenariyə əl atsanız, uğur qazana bilməyəcəksiniz. Biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu.

2018-ci ilə qədər ötən 15 il ərzində torpaqlarımızın azad olunması ilə bağlı mühüm proseslər həyata keçirildi. Ən əsası ölkə iqtisadiyyatı inkişaf etdi, ordu quruculuğu sahəsində yüzilliklərə sığan işlər görüldü. Qarabağ probleminin dinc yolla həlli istiqamətində illərlə iş aparılsa da, lakin bu sahədə uğurlu nəticə əldə olunmamışdı. Çünki Azərbaycanın sülh səsinə beynəlxalq aləm cavab vermədi. Ermənistan respublikası isə nəinki torpaqlarımızı sülh yolu ilə qaytarmaq istəmədi, hətta yeni işğalçılıq siyasətini davam etdirdi.

Dövlətimizin başçısı isə xalqa bütün müraciətlərində, hətta beynəlxalq kürsülərdə çıxışlarında belə vurğulayırdı ki, torpaqlarımızın sülh yolu ilə qaytarılması mümkün olmasa, bu, hərb yolu ilə olacaq. 2020-ci il torpaqlarımızın işğalda qaldığı son il oldu. Sentyabrın 27-də Ermənistan hərbi birləşmələrinin yeni torpaq iddiaları ilə sərhədlərimizə hücumu milli ordumuzun tutarlı cavabı ilə dayandırıldı. Və həmin gün ölkəmizdə ikinci Vətən müharibəsinin başlandığı gün oldu.

43 gün davam edən müharibənin 44-cü günü millətimizə qələbə bəxş etdi. Qarabağ torpaqlarında şiddətli döyüşlər getdi. Şəhidlər verdik, qazilərimiz oldu. Lakin birbirinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi. Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Şuşa işğaldan azad edildi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli bəyannaməyə əsasən Ağdam, Kəlbəcər və Laçının boşaldılması üçün düşmənə vaxt verilməsi isə dövlətimizin başçısının humanistliyini dünyaya bəyan etdi. Həmin ilin sonunadək həmin üç rayonumuz da erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Beləliklə 30 il ərzində ev-eşiyindən, doğma yurdundan erməni qəsbkarları tərəfindən silah gücü ilə çıxarılan minlərlə məcburi köçkünümüzün tapdanmış hüquqları bərpa olundu.

Onların yurduna-evinə qayıtması üçün hələ müharibə bitməmiş, torpaqlarımız birbir azad olunduqca quruculuq və bərpa işlərinə dərhal başlandı ki, bu da dövlətimizin qüdrətini göstərməklə yanaşı, həm də hər bir qaçqın, köçkünə, ümumilikdə Azərbaycan vətəndaşına qayğının, ölkədə insan amilinə verilən dəyərin təzahürü idi.

## 44 gündə 30-dan artıq

Cənab Prezident 44 günlük Vətən müharibəsində Azərbaycan tarixinə adı ilə yanaşı, həm də bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. Ölkəmizin başçısı ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də 44 günün hər anında dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyran edən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, Ulu Öndərin layiqli davamçısı olduğunu da göstərdi.

Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini insanların gözündə xoş xəbər müjdəçisi etdi. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, bu dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu.

## Vətən müharibəsi göstərdi

Xalq İkinci Vətən müharibəsində Böyük Zəfərlə yanaşı, həm də bir çox məqamları gördü.

–Cənab Prezidentin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu, hər bir gəncə nümunə gücündə olan, təsirli məqamdır.

– Ölkəmizin Prezidentinin 17 illik fəaliyyəti dövründə hər il bütün bayramlarda xalqımıza müraciətlərində Qarabağdan söhbət açıb, onun bir gün geri qaytarılacağını əminliklə söylədiyinin şahidi olmuşuq. Müharibənin nəticələri Prezidentimizin ötən 17 ildə söylədiyi sözlərin arxasında həm də bu sözlər dəyərində olan ordu quruculuğu prosesini uğurla həyata keçirdiyini, Ali Baş Komandanımızın sözlə əməl vəhdətini təsdiqlədi.

– Cənab Prezidentdə Azərbaycançılıqdan irəli gələn bir xarakteri də açıqca gördük. O, hər kəs kimi müharibə istəmirdi, qan tökülməsini, övlad itkisini istəmirdi. Bunu dəfələrlə Ermənistan siyasi rəhbərinə müraciətində gördük. "Torpaqlarımızdan çıxın, müharibəni dayandıraq", – dedi. Ermənilər bu mənəvi dəyərin nə olduğunu bilməsələr də, bu təkliflər onlara dəfələrlə edildi.

– Vətən müharibəsi cənab İlham Əliyevin sayəsində bizim özümüzü tanımağımıza vəsilə oldu. Biz gördük ki, azərbaycanlılar nə qədər həmrəy, bir yumruq kimi birləşə bilən, eyni zamanda çox vətənpərvər bir xalqdır. Vətəninə, bayrağına sevdalıdır.

– Müharibə xalqın rəhbərinə inamını da nümayiş etdirdi. Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandıqlarını bildirdilər. Evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də buna əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarılacaq. Çünki bu insanlar cənab Prezidentin verdiyi sözlərə əməl etdiyinin şahidi olan insanlardır.

– Vətən müharibəsi onu təsdiq etdi ki, xalq-dövlət birliyindən güclü qüvvə ola bilməz. Elə bu qüvvə də qələbəmizin səbəbkarı oldu.

–2023-cü ilin 20 sentyabrda 20 saatlıq antiterror tədbirləri isə dövlət başçısının siyasətində başlanan işin müvəffəqiyyətlə başa çatdırmasının mühümlüyünü isbat etdi.

– Və son olaraq, Prezidentimizin illər öncə dediyi bu fikirlərini təsdiqlədi: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin".

Bəli, ötən 5 ilin uğurları, xüsusilə də tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri əvvəlki 15 ilin hər anında Prezidentin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, həm də Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Odur ki, qarşıdakı növbəti Prezident seçkilərində də xalq öz düzgün seçimi ilə dövlətini, millətini bütün dəyərlərdən üstün tutan namizədinə səs verməklə, Azərbaycan tarixində yeni bir səhifəni açmış olacaq.

***Mətanət Məmmədova***

# Şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarına dəyişiklik edilib



***Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarına dəyişiklik edilib. SİA-nın xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb. Dəyişikliklə qaydanın 2.1.6-cı yarımbəndindən "həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarıb. Qaydanın əvvəlki variantı isə belədir:***

Şəhid ailə üzvləri aşağıdakılar hesab olunurlar;

- arvadı (əri);
- valideynləri;
- 18 yaşına çatmamış uşaqları, 18 yaşınadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan övladları;
- qardaşları və bacıları — uşaq evlərində tərbiyə olunanlar;
- babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;

2.1.3 və 2.1.4 bəndlərdə (18 yaşına çatmamış uşaqları, 18 yaşınadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan övladları; qardaşları və bacıları - uşaq evlərində tərbiyə olunanlar) göstərilənlər əyani təhsil müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqda 23 yaşa çatanadək ailə üzvü hesab edilirlər.

# Borrelə həddini bildirən XATIRLATMALAR

***Ölkəmizə qarşı ədalətsiz yanaşması və ermənipərəst mövqeyi ilə seçilən Avropa diplomatiyasının rəhbəri Jozep Borrell Azərbaycana qarşı qərəzli olduğunu yenə də gizlətməyib. Qarabağdan köç edən ermənilər barədə statistik göstəriciləri belə əhəmiyyətli dərəcədə şişirdən Borrell, Ermənistan tərəfinin onsuz da şişirtdiyi rəqəmləri belə "kölgədə" qoymaqla, bu dəfə "həddini aşıb". Görünür, Avropa diplomatiyası rəhbərinə bir sıra xatırlatmalar etmək gərəkdir ki, "həddi bildirilsin".***




Borrell tərəfindən ölkəmizə qarşı səsləndirilən fikirlər, hər zaman olduğu kimi, yenə də həqiqətdən uzaqdır və yalnız təxribatçı fikir olaraq qəbul edilməkdədir. Onun 4 dekabr tarixində, Avropa İttifaqı QHT forumunda dedikləri əslində, hansı mövqedə olduğunu bir daha təsdiqləyir. "Uzun müddətdir dondurulmuş Ermənistan-Azərbaycan münaqişəsinin nəticəsi hərbi müdaxilə ilə həll edilib və bu, bir həftə ərzində 150 min insanı evlərini tərk etməyə məcbur edib", deyən Avropa diplomatiyası rəhbəri bir cümləsində bir neçə yalana və təxribata birdən əl atıb. Xatırladaq ki, əvvəla, münaqişənin dondurulması yox, onun həlli tələb olunurdu və münaqişənin dondurulmasına da çalışan Azərbaycan yox, Ermənistan tərəfi idi. Hərçənd, elə bu münaqişənin, Borrell də dediyi kimi, hərbi yolla həll edilməsinin səbəbi də onun dondurulması cəhdi sayılır. Çünki Azərbaycan bu münaqişənin həllini, özü də sülh yolu ilə həllini gözlədiyi halda, onu dondurmaq ədalətin bərpasını, haqqın qələbəsini dondurmaq, uzatmaq kimi başa düşülür və buna da biz razı ola bilməzdik. Xalqımız özünə məxsus olan dəyərlərə sahib çıxmaq üçün əsrin üçdə birinə yaxın müddət ərzində gözləmədi ki, kimsə, nəyi isə dondursun. Əgər avropalılar belə "dondurmaq" həvəsindədirlərsə, şəxsən kataloniyalı diplomata tapşırsınlar ki, ilk növbədə gedib İspaniyada katalonlarla bağlı vəziyyəti dondursun. Biz özümüzə məxsus olan uğrunda mübarizə aparmışıq, savaş etmişik, özü də öz torpaqlarımızda və həmin torpaqlarda da qonşu ölkənin qanunsuz silahlılarını tərksilah etmişik. Amma Jozep Borrelə xatırladaq ki, İspaniya kimi bir Avropa ölkəsi öz daxilində azadlıq, müstəqillik istəyən kataloniyalıların arzusunu bir anda güc hesabına boğmuş oldu və həmin o istəyi dondurmaq yada belə düşmədi.

Bir həftə ərzində 150 min insanın evlərini tərk etməsini deyən Borrell bu rəqəmi hardan götürüb ki, belə ağız dolusu əminliklə danışır? Axı Ermənistan tərəfi belə bunun 100 min nəfər olduğunu iddia etmişdi, özü də şişirdərək. Bəs avropalı diplomata nə düşmüşdü ki, həmin rəqəmi düz 50 min artıraraq ifadə edirdi? Harda yaşamışdı həmin o dedyi 150 min erməni, Qarabağ ərazisindəmi? Soruşmaq ayıb olmasın, onlar, yəni Borrelin dedyi həmin o 150 min nəfər keçid məntəqəsindən keçmədən, göylə getmişdi, yoxsa, yerin altı ilə? Axı bizim də gözümüz önündə bu köç deyilən qurma oyunu Ermənistan tərəfi oynamışdı və həmin sayda insanın köç etməsini təsdiq edən bircə dənə də mənbə yoxdur. Halbuki, rəsmi Bakı avropalı diplomatın bu ədalətsiz mövqeyinə, bəyanatına, şişirtdiyi statistik rəqənlərə dərhal cavab verib. "Avropa İttifaqına bəllidir ki, bu əraziləri tərk edən 15 min erməni Ermənistan ordusunun hərbçiləridir. Üstəlik, əgər Ermənistan tərəfi ərazini tərk edən ermənilərin sayının 100 min olduğunu bəyan edibsə, Borrelin 150 min nəfəri qeyd etməsi ciddi anlaşılmazlıq kimi başa düşülür. Borrelin bu cür yalan bəyanatları Aİ-nin vasitəçilik səylərini və Aİ Şurasının sədri Çarlz Mişelin bu istiqamətdəki missiyasını sarsıdır", deyə ölkəmizin Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib. İndi buyursun Borrell də həmin o statistik rəqəmi haradan götürdüyünü söyləsin və ölkəmizin Xarici İşlər Nazirliyinin rəsmi şəkildə bəyanatının ardınca rəqəmlərə bir daha aydınlıq gətirsin.

Onsuz da nə Borrell, nə də Ermənistan tərəfindən şişirdilmiş şəkildə söylənilən rəqəmlərə qətiyyən inanan yoxdur. Əvvəla, bu rəqəmləri təsdiq edə bilən bircə dənə də sübut tapıb hələ də ortaya çıxaran olmayıb. Digər tərəfdən də biz bilirik ki, hər şeyi şişirtmək Ermənistanda bir tarixi ənənəyə çevrilib. Sanki ermənilər hər şeyi şişirtməkdən xoşlanırlar. Bəs Borrell niyə bundan xoşlanır? Azərbaycanın Qarabağ ərazisini 107 min erməninin tərk etdiyi barədə İrəvanda deyildiyi halda, bu rəqəmi əməlli-başlı şişirdib 150 min demək, erməni olmaq həvəsidir, yoxsa erməni dostlarını və ya sponsorlarını razı salmaq niyyəti? Sözsüz ki, erməni təbliğatı Borrelin belə fikirlərindən istifadə edərək, rəqəmlərin bir az da şişirdilməsinə çalışır və erməni xislətinə bələd olduğumuz üçün bu bizi qətiyyən təəccübləndirmir. Ələlxüsus da, Avropa İttifaqının ikili standartlar, ikili yanaşma tətbiq etmək, ermənilərin isə mif yaratmaq və onu şişirtmək "həvəsi" nəzərə alındıqda, Borrelin şişirtmələri bu anda qətiyyən təəccüb doğura bilməz. Söhbət Azərbaycandan gedəndə isə hər ikisinin, Aİ-nin də, ermənilərin də həmin o qeyd olunan "həvəsi" sözsüz ki, dəfələrlə artmış olur.

Borrell münaqişələrin güc yolu ilə həllinin qadağan olması barədə ağız dolusu danışdığı zaman isə utanmaq hissini tamamilə itiribmiş, çünki əks halda kimin güc yolu ilə nə etdiyini xatırlayıb, ən azından bu barədə danışmaz və susardı. "Yaşadığımız zamanın çağırışları bizi yalnız bütün dünyada insan hüquqlarının müdafiəsini davam etdirməyə sövq etməlidir. Çünki bizim gördüyümüz amansız güc siyasətinin qayıdışıdır. Getdikcə daha çox münaqişə güc yolu ilə həll olunur. Buna qadağa qoyulmalı idi", deyən kataloniyalı populist gileylənməkdə yaman gecikib. Deyəsən, ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilər güc tətbiq edəndə, qətliamlar, vəhşiliklər, soyqırımları törədəndə, ərazilərimizi işğal edəndə, torpaqlarımızı zəbt edəndə, ölüm və işgəncə təhdidi altında azərbaycanlıları ayaqyalın, başıaçıq öz yürd-yuvalarından didərgin salanda Borrell qış yuxusunda olubmuş. Ermənilər tərəfindən Qaradağlı, Ağdaban, Ballıqaya, Başlıbel və hətta bəşəriyyət tarixində insanlıq dramı kimi qalan Xocalı faciəsi törədiləndə niyə Borrelin səsi çıxmamışdı? Qətlə yetirdikləri azərbaycanlıların cəsədləri üzərində təhqiramiz hərəkətlər edildiyini Borrell yuxudan, qış yuxusundan ayılandan sonra da olsa görməmişdi? Axı bu barədə kifayət qədər foto və hətta video materiallar, faktlar, arqumentlər var və bu vaxta qədər görməmək üçün hərtərəfli kor olmaq gərəkirdi, amma öz xoşu ilə köç edib gedən erməniləri səhv də olsa, saymasından görürük ki, Borrell kor deyilmiş və hətta biri iki, yaxud üç də görə bilirmiş ki, köç edən ermənilərin sayını fantastik şəkildə ifadə edib.

Avropa diplomatiyasının rəhbərinə xatırlatmaq lazım gəlir ki, həmin o Avropa düz otuz il Ermənistanın təcavüzünə, azərbaycanlı əhalinin soyqırımına və Azərbaycan torpaqlarının 20 faizinin ermənilər tərəfindən işğal altında saxlanılmasına göz yumub. Bir milyon insanın məhz erməni separatçılarının ölüm və işgəncə təhdidi fonunda qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburəyyətində qoyulduğu zaman nəinki təkcə Borrell, bütün avropalılar susublar. Amma indi Borrel kimi birinin timsalında onlar Azərbaycan ərazisində qeyri-qanuni yaşayan bir neçə on minlərlə erməninin könüllü olaraq Ermənistana köçməsinə görə Azərbaycanı az qala bütün "bağışlanılmaz" günahlarda ittiham etməyə çalışırlar. Sözsüz ki, bu, Avropanın ikili standartlarının və hətta ölkəmizə ədalətsiz yanaşmasının təzahürüdür. Belə çıxır ki, Azərbaycanın öz ərazisində anti-terror tədbirləri görməsi, qanunsuz silahlı dəstələri tərksilah etməsi, ərazilərini də həmin o silahlılardan təmizləməsi, öz gücü hesabına, özü də ən qısa zaman kəsiyində hər şeyin öhdəsindən gəlməsi, kimlərinsə, yumşaq desək, xoşuna gəlməyib. Bu kimlərinsə biri də məhz elə Borrell imiş və indi digərləri kimi, onun da qıcıqlanmasının səbəbi bu mənada tamamilə başadüşüləndir.

Nəzərə alsaq ki, Azərbaycanın xarici ticarət dövriyyəsinin təxminən 50 faizi Avropa İttifaqının payına düşür, deməli, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşı hesab olunur. Şəxsən Borrelə xatırlatmaq yerində düşərdi ki, Azərbaycan Avropa İttifaqının doqquz üzvü ilə strateji tərəfdaşlığa dair protokollar qəbul edib və bu da ondan xəbər verir ki, istər ayrı-ayrı dövlətlər, istərsə də təşkilatlar səviyyəsində əlaqələrimiz olduqca yaxşıdır. Özü də ölkəmizin Avropa siyasəti ilə bağlı əsas prioritetləri belə dəyişməzdir və biz Avropa İttifaqı ilə, eləcə də Avropa Komissiyası ilə ticarət-iqtisadi sahədə əməkdaşlığı davam etdirməkdən çəkinmirik. Amma bu o demək deyil ki, biz Avropa İttifaqının ikili standartlarını qəbul etməliyik, həmin ikili standartlarla barışmalıyıq. Yaxud, bu o demək deyil ki, Avropa İttifaqının reallıqları təhrif etməsinə Azərbaycan imkan verəcək. Avropa İttifaqı ilə tərəfdaşlıq heç Borrelin özünə də əsas vermir ki, Azərbaycan barədə təhrif olunmuş fikirlər səsləndirsin. Yaxud da Aİ ilə həmin tərəfdaşlıq o demək deyil ki, Avropa diplomatiyasının rəhbəri Borrelin Azərbaycana qarşı qərəzli mövqeyinə, statistik göstəriciləri şişirdərək, ölkəmizə qarşı hansısa şərt daxilində hədə ilə danışmasına imkan veriləbilər və ona öz həddini bildirən xatırlatmalar edilməz. Xeyr, istər Borrell, istərsə də kim olur-olsun, Azərbaycanın haqq işinin, ədalətli mövqeyinin, milli maraqlarının qanuni şəkildə müdafiəsinə qarşı çıxan hər kəsə reallıqlar haqda xatırlatmalar ediləcək və dərhal da həmin xatırlatmalarla həddi bildiriləcək...

***İnam Hacıyev***

# Azərbaycan - bölgədə davamlı sülh üçün öz əməli töhfəsini verən ölkə!

***Bu gün Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərə uğurla ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə, son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər.***



Bu nailiyyətlər Prezident Ilham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır

Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb. Belə bir mötəbər quruma rəhbərlik etmək, dünya ölkələrində ağır nəticələrə səbəb olan pandemiya ilə mübarizədə bütün dövlətləri birləşdirməyə çalışmaq Azərbaycan Prezidentinin humanist və uzaqgörən siyasətinin göstəricisidir.

Cari ilin noyabr ayında İqtisadi Əməkdaşlıq Təşkilatının 27-ci Toplantısının Şuşada keçirilməsi, ardınca "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfransa ev sahibliyi etməsi Azərbaycanın dünüya miqyasında layiqli yer tutmasının göstəricisidir. Və bu tədbirlərin ardınca, beynəlxalq tədbirlərin məkanı olan Bakıda noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr edilmiş Zirvə görüşünə və dekabrın 6-da ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumun keçirilməsi bir daha Azərbaycanın iqtisadi gücünün, inkişafının, qonaqpərvərliyinin, multikultural dəyərlərinin, sabitlik adası kimi əmin-amanlığın hökm sürdüyü məkan olduğunun bir daha təsdiqləyir.



30 ölkəni təmsil edən 60 xarici ekspertin iştirak etdiyi "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin geniş və hərtərəfli çıxışı bir bir neçə cəhətdən əhəmiyyət daşıyır. Xüsusilə də, Prezidenti beynəlxalq forumun iştirakçılarını sülh müqaviləsinin detalları barədə məlumatlandırıb.

### «SÜLHƏ HƏRBİ YOLLA NECƏ NAİL OLMAQ OLAR, BİZ BUNU NÜMAYİŞ ETDİRDİK»

Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda xüsusilə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi barədə danışarkən söyləyib ki, sülh prosesinin təşəbbüskarı biz olmuşuq: «İlkin mərhələdə Ermənistan tərəfinin səyləri var idi. Bu, həmin sülh müqaviləsi layihəsinə "Dağlıq Qaradağ respublikası"nı daxil etmək idi. Biz əlbəttə ki, bunu rədd etdik».

Dövlətimizin başçısı deyib: "Onlar çalışırdılar ki, müxtəlif mətnlər, formatlar çərçivəsində bunu ("Dağlıq Qaradağ respublikası" – red.) oraya daxil etsinlər. Bizim isə münasibətimiz o idi ki, bu haqda danışa bilmərik, danışmamalıyıq və ərazi bütövlüyünün tanınması qarşılıqlı olmalıdır. Ona görə də biz deyirdik ki, Azərbaycanda erməni azlığı o mətnə daxil ediləcəksə, o zaman Ermənistandan didərgin salınmış azərbaycanlıların da məsələsi oraya daxil edilməlidir və onlar Ermənistana qayıtmalı, orada yaşamalıdırlar, onların hüquqları, təhlükəsizlikləri tam təmin olunmalıdır. Necə ki, Azərbaycanda erməni azlığının hüquqları təmin ediləcək. Təəssüf olsun ki, Ermənistan tərəfi bunu rədd etdi. Bu, məntiqsiz idi. Çünki biz qeyri-adi bir şey təklif etmirdik. Biz qarşılıqlı prinsipi təklif edirdik. Digər variant isə ümumiyyətlə, bu mövzuya toxunmamaq idi. Sentyabrın 19-da keçirilən antiterror tədbirlərindən sonra mənə elə gəlir ki, bu manea aradan qalxıb. Biz hər iki azlığı sülh müqaviləsində təsbit edəcəyik və ya bunun haqqında ümumiyyətlə, danışmayacağıq".

Dövlətimizin başçısı çıxışı zamanı onu da vurğulayıb ki, biz regiona sülhü artıq gətirmişik. Biz onu müharibə yolu ilə etmişik: «Məncə, buna daha geniş diqqət yetirilməlidir. Bu, təkcə Qafqazla bağlı deyil. Sülhə hərbi yolla necə nail olmaq olar, biz bunu nümayiş etdirdik».

İşğal dövründə Minsk qrupunun həmsədrlərindən münaqişənin hərbi yolunun olmaması ilə bağlı vahid mövqe eşitdiyini vurğulayan dövlətimizin başçısı bildirib: «Biz sübut etdik ki, hər üç ölkə yanılırdı. Dövlətçilik tarixlərinə, beynəlxalq təcrübələrinə və onların BMT Təhlükəsizlik Şurasının üzvləri olmalarına baxmayaraq, onlar yanılırdılar. Bu, yanlış qiymətləndirmə idi. Azərbaycana müəyyən bir mesaj idi ki, siz hərbi yola əl atsanız buna müvəffəq olmayacaqsız».

### PREZİDENT İLHAM ƏLİYEV QRANADA GÖRÜŞÜNƏ GETMƏMƏSİNİN SƏBƏBLƏRİNİ AÇIQLAYIB

Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı Qranada görüşünə getməməsinin səbəblərini açıqlayaraq bildirib: «Fransa Prezidenti (Emmanuel Makron - red), Şarl Mişel və Ermənistanın baş naziri ilə Praqa görüşünün keçirilməsi təklifi irəli sürüldü. Praqada keçirilən görüşü müsbət qiymətləndirirəm. Çünki o vaxt baş nazir Paşinyan Qarabağı Azərbaycanın hissəsi kimi tanıdı. Düzdür, o, sonra başqa bəyanatla çıxış etdi, öz fikrindən çəkindi. Həmin vaxt o, "Dağlıq Qarabağ"a təbrik məktubu göndərdi. Amma yenə də mən Praqa görüşünün nəticəsini müsbət kimi qəbul etdim».

Ermənistan ilə Azərbaycan arasında aparılan sülh danışıqlarına toxunan dövlətimizin başçısı qeyd edib: "Danışıqlar bu formatda davam edirdi. Lakin sonradan nə baş verdi? Fransa Prezidenti televiziyaya verdiyi müsahibələrindən birində Azərbaycanın ünvanına müəmmalı və qəbuledilməz sözlərdən, ifadələrdən istifadə etdi və beləliklə, özünü prosesdən ayırdı. Çünki tam aydın idi ki, əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız. Ona görə neytral olmalısınız. Bununla bağlı müxtəlif səbəblər var idi. Bu halda artıq vasitəçi olmaq şansı əldən buraxıldı. Biz rəsmən bəyan etdik, artıq düzgün, yaxud münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə, bu məxsusi səbəbə görə mən Qranadaya getmədim".

### «ERMƏNİSTAN YAXŞI QONŞU OLARSA, ÖZ SUVERENLİYİNİ QORUYUB SAXLAYA BİLƏR»

Prezident İlham Əliyev Forumda çıxışı zamanı söyləyib ki, əgər Ermənistan yaxşı qonşu olmaq və dəstək vermək bacarığını nümayiş etdirərsə, bu yolla öz suverenliyini qoruyub saxlaya bilər: «Ermənistan hökuməti xaotik olaraq bir qütbdən digər qütbə gedir. Onlar hesab edirlər ki, bununla xilas olunacaqlar. Bu, belə deyil. Onlar, sadəcə, digər böyük qardaşı qazanacaqlar. Bu böyük qardaş əvvəlki qardaşdan yaxşı olacaq? Səmimi olaraq deyək ki, bu, belə deyil. O uzaqdadır, bölgəyə o qədər də bağlı olan qardaş deyil və özünün siyasi, bəlkə də şəxsi ambisiyalarının, ideyalarının dalınca gedir. Ən azı Ermənistan öz tərəfindən iradəsini bildirməlidir. Bu, sülh üçün ilk şərtdir».

Dövlətimizin başçısı çıxışı zamanı vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyir. «Ermənistanın ərazisini işğal etmək kimi bir hədəfimiz yoxdur", - deyən dövlətimizin başçısı vurğulayıb ki, bəzən əsassız olaraq bizi bunda ittiham edirlər: «Biz bunu etmək istəsəydik edərdik. Bunu açıq şəkildə bəyan edirəm. İstənilən nöqteyi-nəzərdən Azərbaycan üçün böyük problem deyil. Onlar bir gün ərzində öz silahlarını yerə qoydular və bizim bayrağımız Xankəndidə ucaldıldı. Biz bunu etmək istəmirik. Biz bunu etmiriksə, bu o deməkdir ki, mən bu məsələdə haqlıyam».

### AZƏRBAYCAN İNDİYƏ KİMİ NƏYİ DİKTƏ EDİBSƏ, O İCRA EDİLİB, ÖHDƏLİKLƏRDƏN QAÇMAQ MÜMKÜN DEYİL

Bəli, bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onların yeganə çıxış yoludur. Və bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi Qalib Sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Göründüyü kimi, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi aydın və dəqiqdir. Bu məsələdə Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhün əldə olunmasına xidmət edir. Bir sözlə, bütün bunlar Azərbaycanın dünyaya nə qədər sülhsevər bir ölkə olduğu bir daha nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır.

**RƏFİQƏ KAMALQIZI**

# Ulu Öndərin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir

## *Naftalan rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*








"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Naftalan rayon təşkilatı rayon Heydər Əliyev Mərkəzində dekabrın 7-də tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra Şəhidlər Xatirə Kompleksi ziyarət edilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Sonra tədbir iştirakçıları rayon Heydər Əliyev Mərkəzində Ümummilli Liderin şərəfli ömür yolu, ölkəmizin tərəqqisi uğrunda göstərdiyi misilsiz xidmətlərini özündə əks etdirən fotoekspozisiyaya baxış keçiriblər. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Naftalan təşkilatının sədri Rövlan Heydərov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov vurğulayıb ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin şahidi oluruq. Bu gün müasir müstəqil Azərbaycan Ümummilli Liderin ideyaları əsasında inkişaf edir, qüdrətlənir. Ulu Öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Vurğulanıb ki, Ulu Öndər Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimdir.

Naftalan Şəhər Mərkəzi Xəstəxanasının direktoru Samir Allahverdiyev və şəhər Heydər Əliyev Mərkəzinin direktoru, partiya fəalı Faiqə Ağayeva qeyd ediblər ki, keçdiyi zəngin həyat yolu, Vətən və xalq qarşısında misilsiz xidmətləri Heydər Əliyevi öz tarixi, milli dəyərləri, dövlətçilik ənənələri ilə fəxr edən azərbaycanlıların qürur mənbəyinə çevirib. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Sabirabad rayon təşkilatı dekabrın 7-də "Ulu Öndər Heydər Əliyevin siyasi irsi Azərbaycan dövlətçiliyinin yeni inkişaf mərhələsidir" mövzusunda tədbir keçirib.***



# "Ulu Öndər Heydər Əliyevin siyasi irsi Azərbaycan dövlətçiliyinin yeni inkişaf mərhələsidir"

## *Sabirabad rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra Ümummilli Liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxış keçirilib.

Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov bildirib ki, Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir: "Ulu Öndərin fəaliyyətinin hər bir mərhələsi ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir."

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Azərbaycan tarixinin bütöv bir dövrünün dahi şəxsiyyətin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu vurğulayıb. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Diqqətə çatdırıb ki, Ümummilli Liderin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf etməkdədir.

YAP Veteranlar Şurasının üzvü Asif Cahangirov bildirib ki, xalqımız üçün müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlayıb, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter alıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Məhz Ulu Öndərin uzaqgörənliyi, strateji düşünmə bacarığına əsaslanan idarəçilik modeli qısa zaman kəsiyində ölkəmizin dayanıqlı və davamlı inkişafı üçün zəmin yaradıb. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz Ulu Öndər tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarla bağlıdır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov söyləyib ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Heydər Əliyev erası Azərbaycanda müstəqillik, quruculuq, inkişaf, sabitlik, tərəqqi dövrüdür.

Partiya veteranı Fatma Hüseynova və şəhid atası Fəzail Cəfərov çıxış edərək vurğulayıblar ki, Heydər Əliyev tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub, xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Qeyd olunub ki, bu gün xalqımız Ümummilli Liderin layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

Təhlil

# Dünyaya vəsiqə almış irsimiz

***Azərbaycanın hər daşında, hər abidəsində bir tarix yaşayır. Xalqın çoxəsrlik tarixi. O tarix ki, əsrlərin daş yaddaşına hopub və hər biri milli-mənəvi, maddi dəyərlərimizdən danışır. Qalaq-qalaq salnamələrin yaddaşıdır, bu tarix. Ölkəmizi qarış-qarış gəzdikcə daş kitabələr vərəqlənir və oradan dünyaya səs salan nümunələr ilə yaxından tanış olursan. Tariximiz olan maddi-mənəvi memarlıq abidələri Qız qalası, Şirvanşahlar Sarayı, Möminə Xatun Türbəsi və s. hər biri dünyaya vəsiqə almış irsimizdir.***








Azərbaycanın bu və ya digər tarixi irs nümunələri "İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Sarayı Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" və s. YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi zəngin irsimizin təzahürüdür. Eyni zamanda, Azərbaycanın bir neçə qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil olunub. "Azərbaycan Muğamı", "Azərbaycan Aşıq Sənəti", "Novruz", "Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti", "Tar və Onun İfaçılıq Sənəti", "Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması", "Lahıcın misgərlik sənəti" və s. artıq dünyanın ən



seçilən nadir nümunələri kimi tanınır. "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu UNESCO-nun Dünya İrs Komitəsinin ilkin siyahısına daxil edilib. Bütün bunlarla yanaşı, Şəkinin tarixi mərkəzinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi Azərbaycanın növbəti uğuru oldu. Bu hadisə mədəni və tarixi irsin qorunması, eləcə də ölkənin beynəlxalq səviyyədə tanıdılması istiqamətində aparılan məqsədyönlü fəaliyyətin məntiqi nəticəsidir. Hər il 7 iyul tarixi Şəkidə "Şəhər günü" olaraq keçirilir.

Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin Ümumdünya İrs Siyahısına daxil edilməsi böyük sevinclə qarşılandı və bu münasibətilə Azərbaycan xalqına təbrikində Azərbaycan Prezident Cənab İlham Əliyev bildirmişdi ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır. Dövlət başçısı onu da bildirmişdir ki, son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Bütün bunlar Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır. Bütün bunlar artıq ümumbəşəri bir irsə çevrilib.

## BEYNƏLXALQ MAHİYYƏT DAŞIYAN LAYİHƏLƏRİN MÜƏLLİFİ

Əlbəttə ki, bu layihələrin gerçəkləşməsində Azərbaycanın ictimai, sosial, mədəni həyatında önəmli rola malik olan Heydər Əliyev Fondunun rolu və əməyi müstəsnadır. Azərbaycan xalqının Ümummilli Liderinin zəngin irsinin öyrənilməsini, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədini həyata keçirən Fond nəinki Azərbaycanda, onun hüdudlarından belə kənarda humanist ideyaların gerçəkləşdirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dünya miqyasında maraq doğura biləcək, beynəlxalq mahiyyət daşıyan layihələrinə imza atır. Fondun həyata keçirdiyi işıqlı layihələrinin sayı artıq hesaba belə gəlmir. Müxtəlif məzmunlu və mahiyyətli layihələrdə Heydər Əliyev Fondunun məqsədi açıq-aydın görünür.

Məhz bu əməli fəaliyyətin nəticəsidir ki, Mehriban xanım Əliyeva dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülüb. Belə ki, 2005-ci ildə Mehriban xanım Əliyeva "İlin qadını" seçilib. 2005-ci ildə ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı ildə İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin birmənalı olaraq qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. 2009-cu ildə Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni





ilə təltif edildi. 2010-cu ildə Mehriban xanım Əliyeva Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı" ilə təltif edilib. Bütün bunlar Mehriban xanımın Azərbaycan xalqı qarşısında xidmətlərinə olan mükafat və qiymətdir.

Fəaliyyəti dövründə əldə etdiyi bu nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir.

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə bu təşkilat diqqət ayırır. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək və s məsələlər diqqətdə dayanır. Azərbaycan dünyanın nüfuzlu ölkələri sırasında bütün sahələrində təbliğ olunaraq, özünün tarixi mədniyyəti, adət-ənələrini təqdim edərək nüfuzlu qurum tərəfindən öz qiymətini alır. Ölkəmizin sərvətlərinin tanınmasında və dünya miqyasında, əks-səda ilə qarşılanması sözsüz ki, bu beynəlxalq qurum tərəfindən ona verilən yüksək qiymətdir. Görülən işlər Azərbaycanın ölkəmizin daxilində, istərsə də onun hüdudlarından kənarda - dünya irsi obyektlərinin qorunması ilə bağlı həyata keçirdiyi dövlət siyasətinin davamı olduğunu göstərir.

## TÜRK DÜNYASININ NADİR NÜMUNƏLƏRİ

Zəngin irsə malik olan Azərbaycanın nadir nümunələri dünyanın diqqətindədir. Qeyd edək ki, Türkiyənin koordinatorluğu ilə Azərbaycan, İran, Özbəkistan və Tacikistanla birgə təqdim olunan "Təzhib sənəti", İranın koordinatorluğu ilə Türkiyə, Azərbaycan və Özbəkistan ilə birgə hazırlanan "İftar və onunla bağlı sosial-mədəni ənənələr", Azərbaycanın koordinatorluğu altında Türkiyə ilə birlikdə təqdim edilən "Balaban sənətkarlığı və ifaçılıq sənəti" və Türkiyənin koordinatorluğu ilə Azərbaycanla birgə təqdim olunan "Sədəf sənəti" başlıqlı çoxmillətli nominasiyalar üzrə namizədlik nümunələri Botsvananın Kasane şəhərində keçirilən Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 18-ci sessiyasında UNESCO-nun çoxmillətli nominasiyalar üzrə Bəşəriyyətin Qeyri-maddi mədəni irsinin Reprezentativ siyahısına daxil edilib.

Bildiyimiz kimi, balaban Azərbaycanın qədim xalq musiqi alətidir. Arxa hissəsində bir, üzərində səkkiz dəlik açılaraq əsasən, tut ağacından hazırlanan nəfəsli musiqi aləti xalq arasında balaban və ya "yastı balaban" adı ilə tanınır. Yumşaq və həzin səsə malik balabandan ansambl, orkestr və solo aləti kimi nəfəsli alətlər qrupunu, o cümlədən aşıqlar dəstəsini müşayiət etmək üçün istifadə edilir. Xatırladaq ki, Balabanın adına Azərbaycan eposu sayılan "Kitabi Dədə Qorqud" dastanında, eləcə də klassik Azərbaycan şairlərinin əsərlərində rast gəlinir.

Məlumdur ki, türk xalqları özlərinin qədim, çoxəsrlik tarixi boyu Avrasiya məkanının böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Türk xalqlarının ulu tarixin dərinliklərindən keçib gələn zəngin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün mərhələlərdə imtahanlardan, sınaqlardan mətanətlə çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Müasir dövrümüzdə müstəqil Türk dövlətləri həm ayrı-ayrılıqda, həm də birgə çoxtərəfli münasibətlərdə, yəni beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərirlər.

"Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bugünkü vəziyyətin reallıqlarıdır" – deyə Prezident bildirmişdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan yenidən təxribata əl atır

## İlham Əliyev xəbərdarlıq etdi



*“Ermənistan Rusiyaya 400 milyon dollar ödəyib, amma əvəzində silah ala bilmir. Hindistandan silah alırıq, ancaq bu silahların daşınması ilə bağlı logistik problemlər yaranır. Gürcüstandan keçməklə Fransa istehsalı bir neçə zirehli maşın gətirildikdə, bu, “böyük uğur” sayıldı. Silahlanma baxımından vəziyyət ürəkaçan deyil”.*

### Erməni jurnalist: ”Bir dəfə canlı yayım zamanı Paşinyan yerli istehsalın “heç vaxt görmədiyimiz güc”ündən və “gizli silah”ından danışdı”

Qeyd edək ki, bunu erməni jur-



nalist Artak Qalstyan deyib. Onun sözlərinə görə, Ermənistanın hərbi sənayesinin inkişaf etdirilməsi, yerli silahların istehsalı ilə bağlı çox danışılır: ”Paşinyan vaxtaşırı bu məsələ ilə bağlı görüşlər keçirir, çıxışlar edir, amma bunlar bəyanatlar səviyyəsində qalır. Ermənistanda ciddi hərbi məhsullar istehsal olunmur, bu da ixraca tələbatı artırır”.

Qalstyan daha bir xatırlatma da edib. Onun sözlərinə görə, bir dəfə canlı yayım zamanı Paşinyan yerli istehsalın “heç vaxt görmədiyimiz güc”ündən və “gizli silah”ından danışdı: ”Ermənistan istehsalı olan həmin silah – PUA-lar haqda hakimiyyət videolar yayanda, lovğalananda çoxları elə bilirdi ki, təhlükəsizliyimiz təmin olunub. Amma Azərbaycanla 44 günlük müharibə həmin köpüyü partlatdı. Hərbi əməliyyatlar zamanı PUA-ları düşmənə qarşı mübarizədə effektiv olmadı”.

### Qalstyan: ”Yəqin ki, Ermənistan hakimiyyəti həmişə asan yollar axtarır, məsələn...”

Erməni jurnalisti qeyd edib ki, Ermənistan müxtəlif ölkələrlə hərbi əməkdaşlıq sahəsi yaradıb, amma birgə təşəbbüslərlə bağlı heç bir addım yoxdur: “Yəqin ki, Ermənistan hakimiyyəti həmişə asan yollar axtarır, məsələn, silah idxal etmək və məsələni bununla bağlamaq. Üstəlik, kənardan alınan silahların şübhəli keyfiyyəti və səmərəsizliyi...”.

### Prezident İlham Əliyev: ”Hesab edirik ki, bu, əks nəticə verə bilər və təxribata sürükləyə bilər”

Xatırladaq ki, Prezident İlham Əliyev bu sözləri ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda bəyan edib. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Ermənistanın silahlanması məsələsini hər zaman qaldırır: ”Hesab edirik ki, bu, əks nəticə verə bilər və təxribata sürükləyə bilər”.

Onun sözlərinə görə, Ermənistana silah təchiz edən Fransa və Hindistan kimi ölkələr hazırda odun üstünə yağ tökür və Ermənistanda reallıqdan uzaq xülyalar yaradır ki, guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər:

“Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə, onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir.

İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın öz bəyanatlarına görə, erməni ordusunda döyüş meydanında 12 min fərari oldu, Azərbaycan Ordusunda isə sıfır. Beləliklə, onların şansı yoxdur. Bir sözlə, mənim onlara mesajım ondan ibarətdir ki, qoy burada, regionda elə vəziyyət yaratmasınlar ki, bizə hər hansı ziyan vurmağın planlaşdırılmamasından əmin olaq! Hələ ki, biz əmin deyilik. Bu səbəbdən, biz reaksiya vermirik. Fransanın Ermənistana heç kəsin almaq istəmədiyi zirehli maşınların təchiz olunmasını müşahidə edirik.

Onlar bizə hər hansı təhlükə ehtiva etmir. Lakin əgər görsək ki, zərərli ola biləcək hər hansı qurğu olarsa, biz cavab verməli olacağıq və mən bu haqda hər kəsi məlumatlandırmışam ki, sonradan şikayət olmasın. Biz cavab verməli olacağıq, çünki hər ölkə öz xalqını müdafiə etməlidir və ümid edirəm ki, bu cür cavaba ehtiyac qalmayacaq. Lakin bunun üçün yeni böyük qardaş rolunu oynamaq istəyən Ermənistanın yeni havadarlarına öz gözəl paytaxtında oturub dincəlməsi, rahat olması məsləhətlidir”.

**Afət Tahirqızı**





**Elçin Bayramlı**

# O sudan içməyin!

Son vaxtlar maddi dəyərlər mənəvi dəyərləri üstələyib. Hiyləgərlik üsulları xeyli rəngarəngləşib və təkmilləşib. Ümumi cəmiyyət maraqları şəxsi maraqlara qurban verilir. Əsas məqsəd çoxlu pul qazanmaq, vəzifə, şöhrət əldə etmək və özünü başqalarından üstün göstərməkdir. Qanunu, qaydanı pozmaq üstünlük sayılır, başqalarından fərqlənmək (bu hətta pis şeylərdə olsa belə) azarı gənclər arasında geniş yayılır.

İnsanlar arasında münaqişələrin, boşanmaların və ailədaxili qətllərin sayı artır. Böyük sözünü vecinə alan da yoxdur. Bir çox gənclər açıqca deyirlər ki, biz hər şeyi yaxşı bilirik, siz yaşlı nəsil heç nə bilmirsiniz və səhv edirsiniz. Lakin reallıq bütün dövrlərdə və bütün ölkələrdə olduğu kimi tam əksini göstərir.

Heç kim etiraz etməz ki, son vaxtlaradək milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında yazılmamış qanunlar adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu.

İnsanlar bir-biri ilə ədəb-ərkanla davranır, böyük-kiçik, qadın-kişi yeri bilinirdi. Ayıb deyilən şeylər var idi, utanılası hərəkətlər var idi. 20-ci əsrin sonunda situasiya 180 dərəcə dəyişdi- sanki insanlara kimsə dedi ki, artıq utanmaq, qızarmaq ləğv olunur.... Əvvəl sadəcə yaşamaq, sonra isə hamıdan daha yaxşı yaşamaq uğrunda aparılan mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi.

Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması... siyahı təəssüf ki, xeyli uzundur. Bu psixotron terror mənəvi zombiləşmənin əsasını qoymaqdadır...

İnternet məkanında biabırçılıq baş alıb gedir. Bu məkanda hər cür murdarlığın, hər növ əxlaqsızlığın açıq təbliği gedir. Bu qlobal prosesi ölkəmizdə aparan mütəşəkkil qüvvələr mənəvi dəyərləri müdafiə edənləri “geridə qalmış” adlandırır və az qalırlar linç edələr. “Overton pəncərəsi” haqda oxuyun, prosesin necə aparıldığını, cəmiyyət dəyərlərin kəskin və sürətli dəyişməsindən şoka düşməsin deyə “diri qurbağının qaynar suda necə bişirdildiyini”görəcəksiniz.

Bəli hər şey tədricən dəyişdi. İndi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur. Burada qədim bir hind pritçasını yada salmağa dəyər.

Rəvayətə görə, qədimdə bir şəhərin ətrafındakı meşəlikdə tək yaşayan, ibadət və elmlə məşğul olan bir zahid müdrik varmış. Dünyanın qızıl dövrü imiş. Hər yanda əmin-amanlıq bolluq və mehribanlıq. Bir gün bu müdrik dağdan enir şəhərə və adamlara deyir ki, tezliklə hər şey dəyişəcək, tam tərsinə olacaq. Bunun əlamətini onda biləcəksiniz ki, su dadını dəyişəcək bir qədər acı dadmağa başlayacaq. İnsanlar ona inanmırlar. Yalnız bir gənc inanır və gedib şəhər kənarında özünə koma tikir, yeri qazıb anbar düzəldir və oraya su daşıyıb toplayır və ancaq o sudan içir.

Vaxt keçir, vədə yetişir, gənc bir dəfə şəhərə düşdükdə baxır ki, adamlar dəyişib, əvvəl ayıb sayılan şeylər indi yaxşı, əvvəl yaxşı sayılan işlər indi pis sayılır. Onunla bununla mübahisə etməkdən yorulur, heç kimə izah edə bilmir ki, elə deyil belədir. Hər dəfə bunu döyüb qovurlar ki, sən bizdən ağıllısanmı. Gedir o müdrikin yanına ki, mən neyləyim. Müdrik deyir ki, 3 yolun var, ya axıradək mübarizə aparacaqsan, amma səni fiziki olaraq öldürə bilərlər, ya onların suyundan içib onlar kimi olacaqsan, bu halda mənəvi cəhətdən öləcəksən, ya da cəmiyyəti tərk edib mənim kimi uca dağların başında tək yaşayacaqsan. Bu gənc çox düşünür, axırda 3-cü yolu seçir. Gedir müdrikin yanına və ona xidmət etməklə ömrünün sonunadək orda yaşayır.

İndi həmin “su” bəzi xarici mərkəzlər tərəfindən ölkəmizə, cəmiyyətimizə təklif olunur, çoxumuz isə bu suyun tərkibi haqda məlumatlı deyilik, elə sudur deyib içirik. Lakin hələ də o “su”dan içməyənlər var, onları “o sudan içməyə” məcbur etmək, ya da qaçıb dağ başına getmələrinə səbəb olmaq lazım deyil.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları önə çıxarmalıyıq. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik.

Mənəvi Dəyərlərin Təbliği Fondu bu istiqamətdə böyük işlər, milli mədəniyyətimizi, mənəvi dəyərlərimizi yaşatmağa, gənc nəslə təbliğ etməyə çalışır. Lakin ehtiyac səviyyəsi bu Fondun imkanlarından dəfələrlə böyükdür. Bu səbəbdən Fondun imkanlarını və gücünü xeyli artırmağa ehtiyac var. Dövlət və cəmiyyət bu məsələdə yekdil olmalı və birgə çalışmalıdır. Əks halda qloballaşma kampaniyasında əriyib gedəcək və mənəvi deqradasiyadan qurtula bilməyəcəyik.

# XAŞ: Sevək, yoxsa iyrənək?

***Kəllə-paça və xaş şorbasının xüsusilə yüksək vitamin və mineral tərkibi ilə soyuqdəymə xəstəliklərinə qarşı qılınc rolu oynadığı hər kəsə məlumdur. Yəni, bunlar bədən müqavimətini artırır. İyrənənlərlə yanaşı, bu yeməyi sevənlər də az deyil. Həmçinin, kəllə-paça və xaş antibiotik rolunu oynayan və enerji verən ən məşhur təamlardan biridir. Bəs, bunun kimlərə fayda və zərəri var? Hansı saat aralıqlarında istehlak edilməlidir?***





**SİA mövzu ilə bağlı araşdırma aparıb.**

Məlumdur ki, qış aylarının gəlişi ilə şorba istehlakı xeyli artır. Təbii antibiotik kimi tanınan kəllə-paça və xaş şorbası, əslində, bir sıra qış xəstəliklərinin qarşısını alır. Bədən müqavimətini artırmaq, enerji vermək, əzələləri və sümükləri gücləndirmək ilk olaraq qeyd edə biləcəyimiz faydalar arasındadır. Amma əslində, siyahı daha uzundur.

### Bədən müqavimətini artırır

Başda qeyd etdiyimiz kimi, xaş və kəllə-paçanın faydaları arasında birincisi bədən müqavimətini artırmasıdır. Tərkibindəki sıx kollagen miqdarı sayəsində bu effekti təmin edir. Qeyd edək ki, kollagen bədəndəki dəri, tendon və ya sümüklərdən alınan struktur zülallardır. O, həmçinin bütün bədən zülallarının əksəriyyətini təşkil edir. Əlavə olaraq qeyd etmək lazımdır ki, toxumalara yapışdırıcı təsir göstərir.

### Antibiotik kimi fəaliyyət göstərir

Qrip, soyuqdəymə və ya buna bənzər qış xəstəliklərinin təsirindən xilas olmaq üçün bol miqdarda kəllə-paça istehlak etmək faydalıdır. Burada antibiotik funksiyası ön plana çıxır. Xüsusilə qara bibər və bol sirkə ilə kəllə-paça və xaşın təsirini daha da artırmaq mümkündür. Damaq dadınıza uyğun olaraq şorbanıza limon və sirkə də əlavə edə bilərsiniz.

### Hüceyrə yeniləyici təsirə malikdir

Həkimlər hər hansı bir zədə, çat və ya qırıq-çıxıq üçün mütləq xaş, yaxud kəllə-paça şorbasını tövsiyə edirlər. Bunun arxasında yüksək kollagen effekti meydana çıxır. Hüceyrə zədələnməsini dayandırmaq və cavan görünmək istəyənlər üçün də bu şorba böyük əhəmiyyət kəsb edir.

### Enerji verir

Bədən müqavimətini artırmaq, antibiotik funksiyasını yerinə yetirmək və hüceyrə yeniləmək funksiyaları ilə əlaqədar olaraq, xaş və kəllə-paça şorbası bədənə enerji verir və fiziki fəaliyyətinizi daha asan həyata keçirməyə imkan verir. Yəni müəyyən aralıqlarla nizamlı olaraq istehlak edilən bu şorbalarla əslində bədəninizə əhəmiyyətli miqdarda vitamin və mineral əlavə etmiş olursunuz.

### Sümükləri gücləndirir

Həmçinin sümüklərin və əzələlərin inkişafına kömək edir. Çünki tərkibində çoxlu miqdarda kollagen var. Təbii ki, yüksək protein mənbələri əzələlərin və sümüklərin güclənməsində böyük rol oynayır. Qeyd edək ki, əzələ kütləsini artırmaq istəyən idmançılar müəyyən aralıqlarla kəllə-paça və xaş şorbası da içirlər.

### İnfeksiyanın təmizlənməsini sürətləndirir

Dəri və sidik yolu infeksiyası zamanı kəllə-paça və xaş şorbası infeksiyanın təmizlənməsini sürətləndirir. Yəni, antioksidan xüsusiyyətləri sayəsində bütün bədənə yayılmağa başlayan infeksiyanın təmizlənməsinə böyük töhfə verir.

### Saç tellərini gücləndirir



Saçların qırılması və tökülməsi demək olar ki, hər kəsin başına gələn bir vəziyyətdir. Bəli, ediləcək ən məntiqli şey peşəkar dəstək almaq və daimi həll yolu tapmaqdır. Ancaq təbii həll yolları axtaranlara kəllə-paça və xaş şorbasını tövsiyə edə bilərik. Çünki zəifləmiş saç tellərini nəmləndirərək onları canlandırır. Yəni, saçlarınızın daha sağlam bir quruluşa sahib olması üçün kəllə-paça şorbası içə bilərsiniz.

### Çəki artırmağa kömək edir

Arıqlamaq istəyənlərin sayı qat-qat çox olsa da, bunun əksini yaşayanlar da var. Xüsusilə əzələ kütləsini artırmaq, kökəlmək və bədənlərini formalaşdırmaq istəyənlərə kəllə paça və xaş tövsiyə olunur. Yenə yüksək vitamin və mineral dəstəyi ilə sağlam kökəlməyə müsbət təsir edir.

### Beyin inkişafını dəstəkləyir

Bir çox mütəxəssis zehni inkişaf üçün bol ət və süd məhsulları istehlak edilməli olduğunu vurğulayır. Bu inkişafı kəllə-paça və xaş şorbası ilə dəstəkləyə bilərsiniz.

### Qan dəyərlərinin normal səviyyələrə çatmasına imkan verir

Digər bir təsir qan dəyərlərini ideal səviyyəyə gətirməsidir. Qan dəyərləri aşağı olan xəstələrin müntəzəm istehlakla normal səviyyəyə qayıtdığı görülmüş və sübut edilmişdir. Başqa sözlə, qan azlığından əziyyət çəkən insanlar da ondan bol-bol istehlak edə bilərlər.

### Gözləri gücləndirir

Yəni, göz sağlamlığını qorumaq və daha yaxşı görmək istəyənlər bu şorbaları müəyyən aralıqlarla istehlak edə bilərlər.

### Qidalandırıcı təsirə malikdir

Tərkibində A və K vitaminləri olduğu, bol zülal ehtiva etdiyi, yağ turşuları ilə birlikdə birləşdirici toxumaları gücləndirici təsiri olduğu üçün müntəzəm olaraq istehlak edilməlidir.

### Zərərləri

Xaş və kəllə-paçanın bəzi hallarda mənfi təsirləri ola bilər. Hər şeydən əvvəl, istehlak edilən bu şorbaların miqdarına diqqət yetirməlisiniz. Yağ və xolesterinlə zəngin olan şorbaların həddindən artıq istehlakı insanlarda xolesterinin artmasına səbəb olur. Bundan əlavə, damarlarda tıxanma və sərtləşməyə səbəb olur. Bu vəziyyətlər də insanlarda infarkt və ya insult yarada bilər.

Həmçinin bu şorbaların yüksək yağ tərkibi də kökəlmənizə səbəb ola bilər. Həddindən artıq istehlakla tez çəki qazana bilərsiniz.

### Hamiləlik zamanı içə bilərik?

Sümük sağlamlığı, ağız sağlamlığı və saç sağlamlığı üçün müalicəvi faydalarla dolu



olan kəllə-paça və xaşın istehlakı ilə bağlı hamilə qadınlara xəbərdarlıq edilir. Bu toksinlər hamiləlik zamanı dölə zərər verə bilər. Bu səbəbdən hamilə qadınlar hamiləlik dövründə kəllə-paça şorbası istehlak etməməlidirlər.

Ayaq şorbasını mütəmadi olaraq və az miqdarda içmək tövsiyə olunur. Gün ərzində 1 porsiyadan çox olmamaq sağlamlığınız üçün olacaq. Çox ayaq şorbası istehlak etmək kökəlməyə səbəb olur. Əgər ayaq şorbasını tez-tez istehlak etsəniz, damarların tıxanma riskini artırarsınız.

### Kəllə-paça və xaşı nə vaxt içmək lazımdır?

Gecələr istehlak edilə bilsə də, səhərlər istehlak etmək sağlamlıq baxımından daha uyğundur.

**Qida üzrə baş mütəxəssis Ağa Salamov:** "Xaş Orta Şərq və Cənubi Qafqaz mətbəxinin ən çox sevilən yeməklərindən biridir. Ona dünyanın müxtəlif ölkələrində fərqli adlar verilib. Məsələn, Türkiyədə, İranda kəllə-paça adı ilə məşhurdur. Xaş da dolma və digər milli yeməklərimiz kimi, bölgələrə görə müxtəlif çeşidlərə bölünür. Elə bölgə var ki, burada xaşın içinə noxud, dəfnə yarpağı, soğan, yaxud da kartof əlavə edirlər".

"Bişmə texnologiyası olduqca sadədir. Üstünə çıxacaq qədər su əlavə edilib qaynayana qədər gözləyirlər. Qaynadıqdan sonra isə aşağı tempdə 5-6 saat, bəzən isə səhərə qədər bişirilir. Bu da heyvanın yaşlı və cavan olmasından irəli gələn vaxt aralığıdır. Əgər yaşlı heyvandırsa onu 10-12, cavandırsa 5-6 saata bişirmək tövsiyə edilir". Ekspert xaş bişirmək üçün heyvan ayaqları alan zaman diqqət edilməli bir neçə məqama da toxundu. O, həmçinin düzgün "ütmə" texnikası barədə oxucularımızı bilgiləndirdi:

"Xaş üçün çox vaxt heyvanın qabaq ayaqları götürülür. Buna səbəb isə ön ayaqların daha ətli olmasıdır. Bundan başqa, heyvan arxa ayaqları üzərində oturduğundan, ön ayaqlardan yemək hazırlanması daha məqsədəuyğundur. Kəllə-paçanın ütülməsinə gəldikdə isə, qazda ütülmənin heç bir ziyanı yoxdur. Mənim yadımdadır ki, əvvəllər vedrənin içində ocaq qalayar orada ayaqları ütərdilər. Bu, ən təbii üsuldur. Kəllə-paça hazırlayan zaman diqqət edilməli məqamlardan biri də yuma qaydasıdır. Sümüyü bir qədər yağlı olduğundan, onu təmizlədikdən sonra, suyunu 3-4 dəfə dəyişərək yumaq lazımdır. Bundan başqa, kəllənin burun hissəsini kəsmək lazımdır. Bir qədər çırpdıqdan sonra isə burun hissəsindən çirklər gələcək və təmizlənmiş olacaq. Bişdikdən sonra duz əlavə edilir".

Xaşın insan orqanizminə mənfi təsirlərinə gəldikdə isə ekspertin sözlərinə görə, bu yeməyi istehlak etməkdə heç bir ziyan yoxdur. Tam ütülərək təmizlənib, bişirilən xaşın tərkibində ziyanlı maddə qalmır:

"Çox vaxt bəzi "diyetoloq"lar insanlara yanlış informasiyalar verirlər. Guya "Azərbaycan mətbəxinin kalori dəyəri yüksəkdir", "Azərbaycan mətbəxi öldürür". Bunlar başa düşmür ki, bizim milli mətbəxi-



miz formalaşıb. Xaş təqdim olunursa, onun kalori dəyəri nə qədər yüksək olsa da, yanında servis edilən sirkə tarazlığı təmin edir. Bir də xolesterini gündəmə gətirirlər. Bilmək lazımdır ki, xolesterinlər faydalı və zərərli olmaqla iki yerə bölünür. Zərərli xolesterinləri yaradan xaş, quyruq, kərə yağı və başqa heyvanmənşəli ət-yağ məhsulları deyil. Qanda pis xolesterinləri şəkər yaradır. Buna görə də insanlar mütəxəssislərin fikirlərinə əhəmiyyət verməlidir. Kor-koranə şəkildə diyetoloq kimi fəaliyyət göstərən insanların sözünə aldanmaq olmaz. Onlar mətbəximizi gözdən salmağa çalışırlar. Bəli, xaş ağırlıq yarada və kökəlməyə səbəb ola bilər. Xaşı yedikdən sonra fiziki aktivlik əsas şərtdir. Ürək, qan-damar sistemi və bu kimi digər xəstəliklərdən əziyyət çəkənlər isə həkim məsləhəti olmadan istehlak etməsinlər".

Sonda isə mütəxəssis insanlara hər gün xaş yeməyi tövsiyə etdiyini qətiyyətlə dilə gətirdi: "Əgər diqqət etmisinizsə, xaş yedikdə insanı yuxu tutur. Bu da ifraz olunan melatonin hormonu ilə əlaqədardır. Bu hormon insanda gümrahlıq hissi yaradır, immun sistemini gücləndirir. Beləcə, insan orqanizmi viruslara qarşı daha müqavimətli olur. Soyuq aylarda xaş istehlak etməyi yeyə bilən və bilməyən hər kəsə şiddətlə tövsiyə edirəm. Hər səhər yesinlər. Ona görə də "3 gün" kurs keçib, adını diyetoloq qoyanlara qarşı dövlət ciddi tədbirlər görməlidir".

*Ayşən Vəli*

ARAŞDIRMA

# Ermənistan mina terroru ilə müharibə cinayətlərini davam etdirir

## *PREZİDENT İLHAM ƏLİYEV: "Qarabağda əsas maneə basdırılmış minalardır"*



***Azərbaycan Ordusu Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində uğurlu əməliyyatlar keçirərək düşmənin işğalçı qüvvələrini qısa müddətdə darmadağın etdi və ölkəmizi ərazi bütövlüyünə qovuşdurdu. Lakin xislətsiz ermənilər məğlubiyyətlərindən iki il yarım keçməsinə baxmayaraq minalanmış ərazilərin xəritələrinin olmadığını iddia etməkdə davam edirlər. Nəticə isə budur ki, müharibə bitib, lakin onun bəlaları bitməyib.***

Bəli, bu gün Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. Mənfur ermənilər 30 il ərzində işğalda saxladıqları əraziləri xarabalığa çevirməklə, infrastrukturunu məhv etməklə yanaşı, şəhər, kənd və qəsəbələrə aparan yolları, tarixi abidələrin yerləşdiyi yerləri, qəbiristanlıqları, əkin sahələrini qarış-qarış minalayıblar. Qarabağ işğaldan azad olunduqdan sonra ilk iş bu ərazilərin minalardan təmizlənməsi olub. Qarabağa Böyük Qayıdışın yolu kommunikasiyaların bərpasından və işğaldan azad edilən ərazilərdə genişmiqyaslı tikinti-quruculuq, təmir-bərpa işlərinin aparılmasından keçir. Bütün bu işlərin həyata keçirilməsi üçün də ilk öncə bu ərazilərdə mina və partlamamış döyüş sursatlarından təmizlənməsindən keçir. İşğaldan azad olunmuş ərazilərdə minalar elə quraşdırılıb ki, hadisə zamanı minaya düşən şəxsin sağ qalmaq ehtimalı olmasın. Bütün bunlarda məqsəd daha çox insanı qətlə yetirmək üçün partlayışın dalğasını maksimum böyütməkdir. Ermənistan işğal etdiyi ərazilərdə hərbi təyinatı olmayan yerləri də minalamışdı. Bu faktın özü Ermənistanın terrorçu xislətindən xəbər verir.

### «QARABAĞDA ƏSAS MANEƏ BASDIRILMIŞ MİNALARDIR. BUNDAN BAŞQA, BİZİM ÜÇÜN HƏR HANSI BİR MANEƏ YOXDUR»

Prezident İlham Əliyevin dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı söyləyib ki, müharibədən sonra ermənilər yüzlərlə minanı məhz təmas xətti olacaq yerlərdə basdırıblar, yəni, separatçı qüvvələrlə Azərbaycanın Silahlı Qüvvələri arasında olan yerlərdə: «O minalar 2021-ci ildə Ermənistanda istehsal olunub. Biz Rusiya sülhməramlılarını və Türkiyə monitorinq missiyasının üzvlərini dəvət etdik, həmin minaları onlara göstərdik. Bu onu göstərir ki, erməni terroru davam edir».

Həmin minaların İkinci Qarabağ müharibəsindən sonra Qarabağa necə daşınması ilə bağlı sualın açıq qaldığını bildirən dövlətimizin başçısı qeyd edib: "Minaların təxminən bir milyona yaxın olduğunu zənn edirik. Onlar bizə təxminən 400 min mina ilə bağlı xəritələr veriblər. Lakin o xəritələrin dəqiqliyi tam deyil".

Azərbaycan Prezidenti onu da bildirib ki, Qarabağda əsas maneə basdırılmış minalardır. Bundan başqa, bizim üçün hər hansı bir maneə yoxdur: «Qarabağın yenidən qurulması bizim sərmayə proqramımızın əsas hissəsini təşkil edəcək. Qarabağ bizim üçün ən yüksək prioritetdir. Çünki insanlar da öz yerlərinə qayıdacaqları vaxtı gözləyirlər», - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

### «BİZİM RƏQİBİMİZ ZAMANDIR, ÇÜNKİ BİZ BU İŞLƏRİ ƏN QISA MÜDDƏTDƏ HƏYATA KEÇİRMƏK NİYYƏTİNDƏYİK»

Dövlət başçısı Qarabağın yenidən qurulmasında əsas maneə olan minalarla bərabər zaman olduğunu söyləyib: «Qarabağın yenidən qurulmasına gəldikdə, təbii ki, əsas maneə zaman və minalardır. Bizim rəqibimiz zamandır, çünki biz bu işləri ən qısa müddətdə həyata keçirmək niyyətindəyik».

Qeyd edək ki, Azərbaycan dövləti də, xalqı da bu məsələdən maddi və mənəvi cəhətdən ziyan çəkir. Müvafiq qurumlarımız minaların aşkar edilərək zərərsizləşdirilməsi işində bütün bilik və bacarıqlarını ortaya qoyurlar. Dövlətimiz bununla əlaqədar əlavə vəsait də xərcləyir, xarici ekspertləri dəvət edir və ya onların təcrübəsindən yararlanır. Yerli və xarici mütəxəssislər məsələnin ciddiliyi ilə bağlı mütəmadi çıxışlar etsələr də, dünya ictimaiyyəti hələ də susur.

Bu yerdə vurğulamaq yerinə düşər ki, üç il əvvəl, müharibə bitəndən dərhal sonra dövlət başçısı İlham Əliyev "Qarabağı yenidən quracağıq və yenidənqurmanın yaxşı nümunəsini nümayiş etdirəcəyik" çağırışını etdi. İndi bu, həyata keçirilir. Biz şəhərlərimizi və kəndlərimizi smart texnologiya platformasına əsaslanaraq tikirik və yenidən qururuq. Şəhər və kəndlərimiz "ağıllı şəhər" və "ağıllı kənd" layihələri əsasında bərpa edilir. Artıq Zəngilan rayonunun Ağalı kəndi ilk "ağıllı kənd"dir. Cənab İlham Əliyev ilk gündən soydaşlarımız üçün ən yüksək səviyyədə şəraitin yaradılmasının vacibliyini bildirdi. O da qeyd olundu ki, bu, təkcə 30 il ərzində erməni işğalından əziyyət çəkmiş, layiqli həyat yaşamağa, tam qorunmağa layiq keçmiş məcburi köçkünlər qarşısında bizim mənəvi borcumuzun bir növ nümayişi olmamalıdır, həmçinin Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik.

Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı onu söyləyib ki, bundan əlavə Qarabağın yenidən qurulması üçün maliyyə vəsadati toplamışıq və bu, investisiya proqramımızın əsas hissəsini təşkil edəcək: «Müqayisə üçün deyim ki, Qarabağın yenidən qurulmasına daha çox vəsait xərcləyəcəyik, - mən dövlət investisiyalarını nəzərdə tuturam, - ölkənin qalan hissəsinə nisbətən daha çox. Bu, ölkənin qalan hissəsini diqqətdən kənar qoyduğumuz anlamına gəlmir. Uzun illər ərzində biz ölkənin qalan hissəsinə artıq milyardlarla manat investisiya yatırmış və əksər infrastruktur layihələrini başa çatdırmışıq. Lakin hazırda Qarabağ bizim əsas prioritetimizdir. Bölgənin özü və ən əhəmiyyətlisi, evlərinə dönməyi gözləyən insanlardır».

Dövlət başçısı İlham Əliyev Forumdakı çıxışında da vurğuladı ki, biz istəyirik proses mümkün qədər tez getsin: «Lakin biz anlayırıq ki, ən yaxşı memarlıq təcrübəsinə əsaslanaraq, ən yaxşı texnologiyalardan irəli gələrək, yaşıl texnologiyaları tətbiq etməklə və həmçinin ən yaxşı şəraitləri yaratmaqla buna nail olmalıyıq».

O da məlumdur ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə start verilən zaman idarəçilik sistemində təkmilləşmə prioritet məsələ kimi öndə dayandı. İlk olaraq Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşada Prezidentin şəxsi nümayəndəliyi fəaliyyətə başladı. Bu, prosesin səmərəliliyinin artırılmasında, nəzarətin gücləndirilməsində əhəmiyyətli rola malikdir. Prezident İlham Əliyev azad edilmiş rayonların Baş planlarının hazırlanması prosesinə şəxsən nəzarət etməklə, bütün detalların nəzərə alınmasına, prosesin müasir şəhərsalma trendlərinə uyğunlaşdırılmasına çalışır. Bu ərazilərin Ümumi Planı artıq təsdiqlənib. Azad edilmiş torpaqlarda qısa müddətdə yaşayış üçün münbit şəraitin formalaşdırılması, həyata keçirilən infrastruktur layihələri – yolların, dəmir yolu xətlərinin, energetika sisteminin bərpası, yeni beynəlxalq hava limanlarının inşası iqtisadi inkişafın sürətləndirilməsi və əlverişli investisiya mühitinin formalaşdırılması baxımından əhəmiyyətlidir.

Artıq Qarabağın, Şərqi Zəngəzurun həyatında yeni dövr zənginliyi ilə diqqət çəkir. Bu baxımdan ki, həm minalardan təmizlənmə işləri həyata keçirilir, həm avtomobil, dəmir və hava yollarının tikintisi və istifadəyə verilməsi həyata keçirilir, həm də bu torpaqların malik olduğu potensialdan səmərəli istifadə etmək üçün Milli Prioritetlər təsdiqlənərək uğurla icra edilir. Bütün bunlar isə onu deməyə əsas verir ki, tezliklə bu ərazilərimizdə 30 ilin işğalını özündə əks etdirən dağıntıları deyil, müasir tələblər səviyyəsində qurulan, bərpa edilən şəhərləri, kənd və qəsəbələri görəcəyik. Lakin Ermənistan və havadarları azərbaycana qarşı təxribatları davam etdirərlərsə, başlarında növbəti "dəmir yumruğu" görə bilərlər.

Bəli, bu gün Ermənistandakı kriminal durum onu bir daha göstərir ki, Azərbaycanın xəbərdarlığına məhəl qoymayaraq tərəfimizdən bundan sonra da çox böyük zərbə alacaq və Ermənistan və havadarları Azərbaycana qarşı bu cür təxribatçı gedişatlar edərlərsə, başlarında "Dəmir yumruğu" yenidən görə bilərlər. Və Prezident İlham Əliyevin təsdiqlədiyi "İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair I Dövlət Proqramı"nda Azərbaycanda 2026-cı ilə qədər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi işləri uğurla həyata keçiriləcək, 2026-cı ilin sonunda 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq.

Bəli, bu gün ölkəmizin kifayət qədər gücü var ki, işğaldan azad olunan ərazilərdə quruculuq bərpa işləri həyata keçirərək Böyük Qayıdışı davam etdirəcək, Ermənistanın 30 il müddətində dağıdaraq viranəyə çevirdiyi bu yerlər Prezident İlham Əliyevin diplomatik məharəti və məqsədyönlü siyasəti nəticəsində qısa zaman çərçivəsində Azərbaycan cənnət-məkana çevriləcək!

***RƏFİQƏ KAMALQIZI***








# Seçki qərarından sonra Əli Kərimlinin evində separatçıların görüşü təşkil olunub

***Azərbaycan dövlətinin müstəqil siyasətinin nəticəsi olaraq sərgilədiyi qətiyyət və cəsarət yerli və xarici qüvvələri ciddi şəkildə narahat edir. Bu baxımdan mümkün çirkin vasitə və üsullardan istifadə etməklə ölkəmizə qarşı genişmiqyaslı şərləmə və böhtanatma kampaniyası həyata keçirirlər. ABŞ-ın və Fransanın erməni lobbisindən maliyyə cəhətdən asılı olan siyasi dairələrinin Azərbaycan haqqında qərəzli qərarlar qəbul etmələri, məntiqsiz və əsassız açıqlamalarla çıxış etmələri daha çox təəccüb və ironiya doğurur.***

günahlandırılır. Belə halda öz gösündə tiri görməyib, başqasının gözündə tükü seçməyə çalışmaq həyasızlığın son həddidir. Digər tərəfdən, bu korrupsiyalaşımış dövlətlər maliyyə imkanlarına arxalanaraq yerlərdəki ələbaxım pozucu qüvvələrdən də öz çirkin məqsədləri üçün istifadə edirlər.

### Cəmil Həsənli Əli Kərimlinin namizədliyinə etiraz etdi

Azərbaycanın dağıdıcı müxalifətinin ABŞ-ın və Avropanın bəzi məkrli dairələrinin istək və tələblərinə uyğun Azərbaycan dövləti və xalqı haqqında təxribat xarakterli açılamalar verib, bəyanatlar səsləndirmələri qeyd olunanlara misal ola bilər. Məkrli qüvvələr təxribatlarını yeni mərhələyə adladıblar. Xüsusilə də,dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Qalib Sərkərdə İlham Əliyevin fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə Sərəncamından sonra daxili və xarici qüvvələr pozucu əməllərini genişləndirmək üçün məsləhətləşmələrə başlayıblar. Bu məqsədlə tələm-təsik AXCP sədri Əli Kərimlinin məzilində, Milli Şuranın sədri Cəmil Həsənlinin, şura üzvləri Tofiq Yaqublunun, Gültəkin Hacıbəylinin, AXCP sədr müavinləri, idarə heyətinin üzvlərinin və fəal trolların iştirakı ilə toplantı keçirilib. Toplantıda Ə.Kərimının namizədliyinin irəli sürülməsi kimi rüsvayçı təkliflər irəli sürülüb və seçkilərin təbliğat-təşviqat dövründə əhali arasında iğtişaşlar, qarşıdurmalar yaratmağın vacibliyini qeyd ediblər. C.Həsənli Ə.Kərimlinin namizədliyinin irəli sürülməsindən narazı qalsa da, açıq şəkildə etirazını dilə gətirə bilməyib. Sadəcə qeyd edib ki, o, bir neçə aylığa ölkəni tərk edərək Böyük Britaniyaya gedir. Bununla da, Ə.Kərimlinin namizəd olaraq meydanda görünməsini qəbul etmədiyini nümayiş etdirib.







Çünki sözügedən dövlətlər 30 il özlərini bitərəf dövlət olaraq ATƏT-in Mİns Qrupunun üzv kimi təqdim ediblər. Görüntü xatirinə Azərbaycanla Ermənistan arasında sülhyaratma missiyası həyata keçirən vasitəçi dövlət olduqlarını göstəriblər. Lakin ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdikdən sonra bu dövlətlərin əsl simaları aşkarlandı. Məlum oldu ki, bu dövlətlər reallıqda Ermənitanın yanındadırlar və çalışırlar ki, erməni lobbisinin maraqlarına uyğun olaraq Azərbaycanı işğal altında olmuş torpaqlarda daha on illər status - kvonun saxlanılmasına razı salsınlar. Lakin Azərbaycan 2020-ci il sentyabrın 27-də başladığı Vətən Müharibəsi ilə onların məkrli planlarını altüst etdi və torpaqlarını işğaldan azad etməklə ərazi bütövlüyünün bərpasına nail oldu.

### Yerli və xarici qüvvələrin hay-küyü əsassızdır

Parlaq qələbədən şoka düşən ermənipərəst dairələr demoqogiyaya oxşar hay-küy qaldırıb, Ermənistandakı revanşistləri bu və digər formada ruhlandırmağa uğursuz cəhdlər göstərirlər. Bəzən özlərinin bu kimi iyrənc metodlarına KİV-ləri, ictimai təşkilatları da şərik edirlər. Son vaxtlar "Vaşinqton Post" qəzetində Azərbaycan əleyhinə yönələn və şərdən ibarət olan məqalələrin dərc olunması ABŞ-ın və Fransanın qaranlıq dairələrinin iyrənc məqsədlərinin ibarət olduğunu göstərir. Bu məqamda ABŞ-ın keçmiş prezidenti Donalt Trampın seçkiöncəsi ABŞ etirafı yada düşür: "Biz korrupsiyalaşmış dövlət aparatına, rüşvətxor məhkəmə-hüquq sisteminə, saxtakar seçki prosesinə, fırıldaqçıların ələltısı olan KİV-ə qarşı mübarizə aparırıq və qələbə çalmaqla onları aradan qaldıracağıq". Göründüyü kimi, ölkənin Prezidenti olmuş D.Tarmp vasitəsi ilə ABŞ-ın dövlət məmurlarının, KİV-lərinin korrupsiya, rüşvət və digər dövlət cinayətlərində

Məsələ bununla bitməyib. C.Həsənli evində ciddi problemi olduğunu əsas gətirərək iclası tərk edib. Bütün bunlar onu deməyə əsas verir ki, Ə.Kərimli namizəd olaraq çıxış etməklə dağıdıcı müxalifət düşərgəsində özünə qarşı olan narazılıqları daha da dərinləşdirəcək. Nəzərə almaq lazımdır ki, AXCP daxilində apardığı siyasətə etiraz edən və bu səbəbdən də onun sədr olmasına qarşı çıxış edən cəbhəçilər var. Hansı ki, narazı cəbhəçilər sonuncu qurultayın nəticələrini qəbul etmədiyini bildirərək bu barədə Ədliyyə Nazirliyinə şikayət ünvanlayıblar. Belə bir ağır məqamda Ə.Kərimlinin namizəd olaraq çıxış etməsi AXCP daxilindəki gərginliyi daha da dərinləşdirmiş olacaq. Hətta AXCP-nin parçalanması da ehtimal olunur. Çünki narazı şəxslər Ə.Kərimlinin namizədliyinin irəli sürülməsinin cəbhəçilərin üzünə tüpürmək kimi qiymətləndirib, özlərinə təhqir hesab edəcəklər. Yolların Kərimlidən ayırmaqla cəmiyyətə nümayiş etdirməyə çalışacaqlar ki, onlar ləkəli bir şəxslə yol getmirlər.

**İ.ƏLİYEV**

ANALİZ

# Torpaq sahələrinin özəlləşdirilməsi üçün vətəndaşlar NƏ ETMƏLİ?

***"Dövlət mülkiyyətində olan torpaq sahələrinin özəlləşdirilməsi üçün vətəndaşlar ilk növbədə Əmlak Məsələləri üzrə Dövlət Xidmətinə müraciət etməlidir".***

**EKSPERT İZAH ETDİ**

Bunu SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə deyib. Ekspertin sözlərinə görə, əmlak qeyri-yaşayış sahələri üzərində inşa olunubsa bu torpağın özəlləşdirilməsi üçün vətəndaşlara imkanlar yaradılır: "Həmin torpaq sahəsinin dəyəri müəyyən edilir. Sonrasında həmin vətəndaşa onun ya icarəyə götürülməsi, ya da mülkiyyətinə keçirilməsi üçün təklif irəli sürülür. Bununla bağlı vətəndaşa bildirişlər də yönləndirilir.



R.Qasımzadə bildirib ki, əgər həmin vətəndaş o torpaq sahəsini özəlləşdirməyə yaxud, icarəyə götürməyə razılaşırsa bu Əmlak Məsələləri üzrə Dövlət Xidməti tərəfindən təmin olunur: "Yox əgər bu vətəndaşı qane etməsə o zaman imtina verir və həmin torpaq sahəsi hərraca çıxarılır. Hərrac vasitəsilə torpaq sahəsinin satışı yaxud icarəyə verilməsi təmin olunur".

***Rəşid Qarayev***

# Erməni diversant 18 il müddətinə azadlıqdan məhrum edildi



***Kəlbəcər istiqamətində tutulmuş erməni diversant Voskanyan Qaqik Aşotinin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. SİA xəbər verir ki, Sabunçu rayon Məhkəməsinin inzibati binasında Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Abdulla Məmmədovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, təqsirləndirilən şəxs 18 il müddətinə azadlıqdan məhrum edilib. Hökmə əsasən, o, cəzasının ilk 5 ilini qapalı, qalanını isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir. Prokuror təqsirləndirilən Qaqik Voskonyanın 18 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.***



Qeyd edək ki, bu il avqustun 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanaraq ibtidai istintaq aparılıb.

Qeyd olunan qanunsuz əməllərin qarşısı alınan zaman saxlanılmış Ermənistan silahlı birləşmələrinin üzvü Voskanyan Qaqik Aşotinin Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı), 214.2.1, 214.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə terrorçuluq), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1 (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Uşaqlar televizora baxsın, ya baxmasın?

***İnternetin kəşfindən sonra informasiya operativliyi baxımından bir qədərləngiyən televizor bütün zamanlarda uşaqlarımızın ən yaxın dostu olub. Amma smart tv-lərin yayılmasından sonra da yaşlı nənə-babamızdan evdar qadına qədər hamımız onunla dostluq edir. Maraqlıdır, müxtəlif serialları, şou proqramları, mətbəx verilişləri ilə bir çox qadının saatlarla qarşısında oturduğu televizorlar uşaqların inkişafına hansı təsiri göstərir?***



Amerikalı mütəxəssislər gündə 2 saatdan çox televiziya izləyən uşaqlarda, irəliləyən yaşlarda ruhi problemlərə rast gəlindiyi barədə həyəcan təbili çalır. Maraqlıdır ki, dünya üzrə ən çox televizor izləmə statistikası da məhz bu ölkəyə aiddir. Elə psixi pozgunluqdan və intihara cəhdlərdən də ən çox əziyyət çəkən amerikan cəmiyyətidir.

Televizorun uşaqlar üzərində təsirini araşdıran ABŞ-ın Sietl Uşaq Xəstəxanasının "Televiziya Araşdırma və Məsləhətləşmə Mərkəzi" çox maraqlı nəticələr ortaya çıxardı. Bu araşdırmaya görə, amerikalı bir uşaq 12 yaşına qədər 100 min zorakılıq və şiddət götüntüsü izləyir ki, bu görüntünün də 8 mini cinayət tərkibli olur. Noyabr ayında aparılan başqa bir araşdırmaya görə isə Amerikada məktəbli uşaq həftədə orta hesabla 27 saat televizor izləyir.

Amerikada uşaqlar üçün hazırlanan televiziya proqramlarında saatda 20 şiddət səhnəsi göstərilir. 6 yaşlı amerikalı uşaqların yüzdə 40 faizi, 12 yaşlı amerikalı uşaqların isə yüzdə 80 faizi yetkinlər üçün hazırlanan proqramları izləyir. Nəzərə alsaq ki, hətta uşaq proqramlarında belə saatda 20 zorakılıq səhnəsi olur, o zaman yetkin amerikalı insanlar üçün hazırlanmış proqramların uşaqlar üçün nə qədər təhlükəli olduğunu anlamaq çətin olmaz.

Rusiya Tibb Elmləri Akademiyasının pediatrlarının fikrincə isə, uşaqların gündə 1, ən çox 2 saatdan çox televiziya izləməsi son dərəcə zərərlidir. Əgər buna diqqət edilməzsə, bu vəziyyət uşaqlarda kompensasiyası mümkün olmayan yaralar aça bilər. Çünki çox televiziya izləyən uşaqda aşağıdakı əlamətlər müşahidə edilir:

**1.** Başqalarının çəkdikləri əzaba və ya çətinliklərə qarşı laqeyd münasibət.

**2.** Ətraflarına və müxtəlif hadisələrə qarşı səbəbsiz qorxu.

**3.** Başqalarına qarşı təcavüzkar və ya zərərverici davranışlar və ya buna meyillilik.

**4.** Davamlı olaraq televizor qarşısında oturduğu üçün çəki artması.

Çıxış yolları var, amma əməl etmək vacibdir

Həm pediatrlar, həm də psixoloqlar valideynlərə kiçik məsləhətlər verməklə problemi yüngülləşdirməyə çalışırlar. Bu da mütəxəssislərin, televiziyanın zərərli təsirlərinin qarşısını alacaq və uşağınızın psixoloji sağlamlığını qurtaracaq tövsiyələri:

- Uşaqların televizor izləmə saatlarını məhdudlaşdırın;
- Onlar üçün yaşlarına uyğun proqramları seçin;
- Uşaqdan öncə mümkünsə proqramı özünüz izləyin;
- Ailəlikcə televiziya izləməyi bir vərdişə çevirin;
- Uşaqlarla barabər siz də onun izlədiyi prorama baxın;
- Proqramı həm ona izah edin, həm də suallarını cavablandırın;
- Həftənin bir gününü "televizorsuz gün" elan edin;
- Mümkün olsa evinizdə televiziya kanallarını açmayın, əvəzində abunə olduğunuz youtube kanallarında seçilmiş cizgi filmləri izləyin.

1-4 yaş arasında olan uşaqlar bir böyüklə birlikdə televiziya izlədikləri zaman bu onlar üçün çox faydalı olur. Uşağa izlədiyi proqram və ya film haqqında məlumat verə bilərsiniz. Bu yaşda olan uşaqlar tez-tez sual verir, çalışın hamısını cavablandırasınız. Onun anlamadığı proqramları izləməsinə icazə verməyin. Uşağın qorxduğu şeyləri yaxşı bilmək lazımdır ki, içərisində belə görüntülər olan proqramları ondan uzaq tutasınız. Bu yaşda uşaqların yarım saatdan çox televiziya izləmələri təhlükəlidir. Uşaq televiziya izlədikdən sonra onu dərhal yatağına yatırtmaq doğru deyil. Uşağın cizgilərin dünyasından real dünyaya geri dönməsi üçün ünsiyyətə ehtiyacı var.





5-12 yaş arası uşaqların özündə şiddət, zorakılıq, qorxu və seks ehtiva edən proqramları izləməmələri lazımdır. Azacıq vaxt sərf etsəniz bu yaşda uşaqların izləyə biləcəkləri proqramları təyin etməniz çətin olmaz. Ancaq o yaşıdlarının izlədiyi proqramlara baxmaq istəsə və bu istəyində israrlı olsa sizin üzərinizə böyük məsuliyyət düşəcək. Belə ki, bu proqramların zərərini, uşaqda yaratdığı fəsadları onun öz dilində anlatmaq lazım gələcək. 5-12 yaş arasında olan uşaqlar üçün ən ideal verilişlər təlim proqramlarıdır. Uşaqlar bu verilişlər sayəsində yeni şeylər öyrənəcək, kağızdan, plastilindən, ağacdan yeni əşyalar hazırlamaq həvəsi yaranacaq. Eyni zamanda, uşaqlar üçün sənədli filmlər də izləyə bilərlər, heyvanlar aləmi barədə zorakılıq, qan və şiddət olmayan filmlər də. Bu yaşlardakı uşaqların 2 saatdan çox televizor izləmələrinə icazə verilməməlidir.

***Lalə Mehralı***

## "Bu sahəyə ayrılan vəsait daha da artırılmalıdır"



MÜNASİBƏT

***"Milli Məclis artıq 2024-cü ilin dövlət büdcəsini təsdiqləyib. Büdcənin belə formatda qəbul olunması gələcək inkişafa, insanların sosial rifahının yaxşılaşdırılmasına, müdafiə və milli təhlükəsizliyimizin təmin olunmasına, regionların inkişafı, xüsusilə də işğaldan azad olunmuş ərazilərin bərpasının sürətləndirilməsinə hesablanıb. Büdcədə 43%-dən çox vəsait sosialyönümlü xərclərə ayrılıb. Bu, cari ilə nisbətən 1 milyard 35 milyon manat çoxdur. Bir çox islahatların həyata keçirilməsi ilə əlaqədar vəsaitin 7 milyard manata çatdırılması əlbəttə ki, insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına diqqətin nümunəsidir. 4 sosial islahat paketi dörd milyondan çox insanı əhatə edir ki, bu da ildən-ilə sosial məsələlərə diqqətlə yanaşılmasının nəticəsidir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Tahir Rzayev deyib.***

Onun sözlərinə görə, ölkənin müdafiə və milli təhlükəsizlik məsələlərinə ayrılan vəsait də kifayət qədərdir: "Bu sahəyə təxminən 9 milyard 377,7 milyon manat vəsait ayrılıb. Hesab edirəm ki, müdafiə və milli təhlükəsizlik məsələsi hər bir vətəndaşı ciddi düşündürür. Çünki müharibədən qalib çıxsaq və müstəqilliyimizi tam şəkildə təmin etsək də, dövlətin müdafiə qüdrətinin möhkəmləndirilməsi ali məqsəd kimi qarşıya qoyulub. Bu, dövlət büdcəsində də öz əksini tapıb. İmkan daxilində bu sahəyə hətta əlavə vəsaitin qoyulması da lazımdır. Çünki Azərbaycana qarşı xarici ölkələr tərəfindən ciddi təpkilər var və yalan-şantaj kampaniyası genişlənməkdədir.

Bu gün Amerika və Fransa kimi dövlətlər Ermənistanı silahlandırıb yeni müharibəyə təhrik etmək niyyətindədirlər. Ona görə də hesab edirəm ki, müdafiə və milli təhlükəsizlik məsələsi dövlətin daim diqqət mərkəzində olmalıdır. Sevindirici haldır ki, bu məsələ büdcə xərclərində də nəzərə alınıb. Dövlət büdcəsində düşməndən azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və tikinti-abadlıq işlərinin görülməsi üçün ayrılan 4 milyard manat vəsait gələcəkdə artırıla bilər. Çünki öz dədə-baba yurdundan didərgin düşmüş insanların daha tez bir zamanda torpaqlarına qayıdışı çox vacibdir. Artıq Laçına, Füzuliyə, Zəngilana köç prosesi həyata keçirilir. Həmin ərazilərdə möhtəşəm işlər görülür. Bu işlər Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət rəhbərinin tapşırığı ilə regionlarda böyük işlər həyata keçirilir".

Deputat sözlərinə davam edərək bildirib ki, büdcədə 17 məsələdə dövlət proqramının yer alması və bu proqramların bilavasitə ölkənin sosial-iqtisadi inkişafına, xəstəliklərin aradan qaldırılmasına, təhsil, səhiyyə və kənd təsərrüfatının səmərəli fəaliyyətinə, qida təhlükəsizliyinin təmin olunmasına istiqamətləndirilməsi önəmlidir: "Sözsüz ki, kənd təsərrüfatı Azərbaycanda önəmli sahədir və qeyri-neft sektorunun inkişafında əhəmiyyətə malikdir. Bu məqsədlə büdcədən 1 milyarddan çox vəsaitin ayrılması nəzərdə tutulub. Bu da gələcək inkişaf üçün yeni perspektivlər açır. Əlbəttə ki, kənd təsərrüfatı sahəsində həyata keçirilən bir sıra mühüm tədbirlər, xüsusilə toxumçuluq təsərrüfatının yaradılması, heyvandarlıqda cins tərkibinin dəyişdirilməsi, yeni texnologiyaların tətbiq olunması gəlirli sahə kimi özünü göstərməyə imkan verəcək. Bu da büdcəyə xeyli dərəcədə vəsaitin əlavə olunması deməkdir. Azərbaycan büdcəsi ildən-ilə artır. Əgər büdcə gəlirləri artarsa, digər sahələrdə də xərclərin artırılması önəmlidir. Sözsüz ki, Prezident İlham Əliyev və hökumət bu sahədə əlavə tədbirlər həyata keçirəcəklər".

***Ləman Sərraf***



# 365-in tək bu günü...



*Yazdıqlarım kimin xətrinə dəyəcəksə, bəri başdan üzr istəyirəm. Ona görə üzr istəyirəm ki, həm üzr istəmək qabiliyyətinə, mədəniyyətinə malikəm, həm də yenicə Ümumdünya Üzr İstəmə Gününü qeyd etdik.*





İnsanlar xarici görünüşcə bir-birinə bənzəmədikləri kimi, xasiyyət və xaraktercə də bir-birinə əsla bənzəmirlər. Məsələn, adamlar var ki, onlara Allah-təala tərəfindən üzr istəmək qabiliyyəti nəsib olmayıb. Nə qədər səhv etsələr də, bilə-bilə ki, səhv edən tərəf onlardır, lakin ya üzr istəməyi bacarmır, ya da özlərinə sığışdırmırlar. Üzr istəmədikcə isə itirirlər: yaxınlarını, övladlarını, dost və rəfiqələrini, ətrafdakı bir heyvanı, bir ağacı, bir yarpağı, bir udum nəfəsi...

Kaş ki, bu gün-üzr istəmə günündə bir möcüzə baş verərdi. Hər kəsə bir günlük də olsa, üzr istəmə qabiliyyəti bəxş olunardı. Bununla da üzr diləməyin necə böyük mədəniyyət olduğunu bilməyənlər bəlkə bu gün üzr diləyərdilər.

Məsələn, kaş ki pəncərəmizin önündən hər gün maşınla-həm də toy karvanı kimi siqnallaya-siqnallaya keçərək başımızı xarab edən sürücülər nə qədər zülm etdiklərini anlayıb bu gün bizdən üzr diləyərdilər...

Marketlərdə bizi endirimli qiymətlərlə aldadan və paxırları kassa qarşısında faş olan market müdirləri əməllərinə görə bizdən məhz bu gün üzr istəyərdilər...

Eləcə də böyük endirim adı ilə camaatı axmaq yerinə qoyduqlarını zənn edən böyük ticarət mərkəzləri, mağazalar şəbəkəsi rəhbərləri heç olmasa, səhv etdiklərini, bizimsə onların kələklərini çox yaxşı bildiyimizi anlayıb heç olmasa, bu gün üzr diləyərdilər...

Yerdə hər addımda qarşılaşdığımız iyrənc tüpürcəyin sahibi olan kişilər ovqatımızı hər gün təlx etdiklərini dərk edib heç olmasa, bu gün bizdən üzr istəyərdilər...

Taksidə, ictimai nəqliyyatda, yolda, küçədə siqareti yandırıb bizi də tüstüsünə bürüyənlər, bəlkə bu gün nə etdiklərini anlayıb bizdən üzr istəyərdilər...

Metroda, küçədə ucadan danışıb-gülən bəzi gənclər bizə nə qədər mənfi enerji verdiklərini düşünüb heç olmasa, bircə dəfəbu gün bizdən üzr diləyərdilər...

İctimai nəqliyyatda tərlərinin qoxusu ilə anadan əmdiyimiz südü burnumuzdan gətirən kişi-qadınlar kaş bunu anlayıb heç olmasa, bu gün bizdən üzr istəyərdilər...

Səs-küylərindən cana gəldiyimiz, guppultudan otaqların çilçıraqlarını yerindən qoparmaqda olan qonşular, özlərinə sığışdıra bilsələr, heç olmasa, bu gün bizdən bir üzr istəyərdilər...





Məişət tullantılarını, xüsusilə uşaq bezlərini balkonlardan aşağı tullayıb çoxlarımızın başında bərqərar edən insanlar, mədəniyyətin nə olduğunu 365 günün bircə günü anlayıb heç olmasa, bu gün bizdən üzr diləyərdilər...

Hər gün evində qanqaraçılıq yaradan, qadınına utanmadan əl qaldıran kişilər barı bu gün qadınlardan üzr istəyərdilər...

Valideyninin üzünə ağ olan, ona səsini qaldıran övladlar kaş ki bu gün səhvlərini anlaya, onlardan üzr diləyərdilər...

Ya tərbiyəsizliyinin, ya insafsızlığının heyfini küçədə bir itdən və ya pişikdən çıxaraq qulağını kəsən, ayaqlarından tutub başıaşağı sallayıb, hələ bunu özünə şan bilərək videosunu da utanmadan Tiktoka yerləşdirənlər bəlkə bu gün o it-pişikdən utanıb üzr istəyərdilər...

Ağacları qıraraq yerində hündürmərtəbəli evlər tikib öz biznesini quran "kişilər" bəlkə bu gün təbiətə vurduğu ziyanı dərk edər, ondan üzr diləyərdilər...

Düşünməyin ki, üzr istəyərik, qəbul etməzlər, pərt olarıq. Atalar deyir ki, qanan qanmazın hər zaman quludur. Bir də belə bir deyim var, üzr istəmək böyüklükdürsə, qəbul etmək fəzilətdir. Gəlin üzr istəyək, inanıram ki, üzrümüz qəbul olunacaq.

**Mətanət Məmmədova**

# "ABŞ paytaxtında görüşlər yenidən başlaya bilər"



*POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ*

"ABŞ Konqresində Azərbaycan əleyhinə çıxış edən dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın Azərbaycana səfəri zamanı nələr söyləyəcəyi səbirsizliklə gözlənilirdi. Çünki, Ceyms O'Brayn Konqresdəki çıxışı ilə ABŞ-ın təhlükəsizlik maraqlarına zərbə vurmuşdu". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elxan Şahinoğlu deyib.O, sözlərinə belə davam edib: "Amerikalı diplomatın Azərbaycan əleyhinə çıxışından sonra 1) Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Vaşinqtonda erməni həmkarı Ararat Mirzoyanla görüşdən; 2) Rəsmi Bakı Vaşinqtonun Azərbaycanla Ermənistan arasında vasitəçiliyindən imtina etmişdi.Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanla əməkdaşlığa vurulan zərbə ABŞ-ın təhlükəsizlik maraqlarına zidd idi. Buna görə də dövlət katibi Antoni Blinken Bakıya zəng edərək Prezident İlham Əliyevin Ceyms O'Braynın Bakıda qəbulunu xahiş etdi. Görüşdən əvvəl Vaşinqtondan münasibətləri yumşaldacaq daha bir açıqlama gəldi. Dövlət Departamentin mətbuat katibi Metyu Miller "biz heç vaxt deməmişik ki, Azərbaycanla əlaqələrimizi davam etdirmək fikrində deyilik. Bu, bizim maraqlarımıza zidd olardı" açıqlaması səsləndirdi.Gözlənildiyi kimi, Bakıda Ceyms O'Braynla İlham Əliyev arasındakı görüşdə münasibətlərdəki müsbət məqamlar önə çəkildi. Birincisi, İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu, Azərbaycanın müstəqilliyi illərində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin qurulduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı. İkincisi, İlham Əliyev Azərbaycanın suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olunması üçün tarixi imkanlar yarandığını və ABŞ-ın yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə biləcəyini dedi.Ceyms O'Brayn İlham Əliyevin sözlərini təsdiqlədi. Amerikalı diplomat ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaş olduqlarını vurğuladı. O da, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın rolundan danışdı. Amerikanın bölgədə sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini deyən Ceyms O'Brayn danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu İlham Əliyevin diqqətinə çatdırdı. O bundan başqa Transxəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyi vurğuladı.Beləliklə, Ceyms O'Brayn Konqresdəki sözlərindən imtina etdi. Ancaq bu azdır, Vaşinqton Azərbaycana verdiyi əhəmiyyətini siyasətində göstərməlidir. Brayn və digər ABŞ rəsmiləri bundan sonra Azərbaycan əleyhinə fikirlər söyləmədikləri halda rəsmi Bakı Vaşinqtonun vasitəçiliyinə müsbət yanaşacaq və ABŞ paytaxtında görüşlər yenidən başlaya bilər".

***Ayşən Vəli***

## Rusiyalı ekspert: "Ermənistandan 2-ci Ukrayna düzəltmək və ondan Rusiya, Azərbaycan, İran və Türkiyəyə qarşı istifadə etmək istəyirlər"



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Qərb Ermənistanı silahlandırıb Qafqazda yeni gərginlik törətməyə çalışır"

Fransa Senatı 2024-cü il üçün müdafiə büdcəsi haqqında qanun layihəsini müzakirə edib. Layihədə Parisin Ukraynaya hərbi yardımı davam etdirməsinin zəruriliyindən bəhs edilir və həmçinin qeyd edilir ki, "bir neçə keçmiş Sovet respublikası Rusiyadan uzaqlaşmaq və müdafiə alətlərini NATO standartlara uyğun qurmaq qərarına gəlib". Və "Fransanın onlara verə biləcəyi dəstək onların müstəqilliklərinin bərqərar olması üçün əsasdır". Ölkələr siyahısına Gürcüstan, Moldova və Ermənistan daxildir. Qanun layihəsində qeyd olunur ki, Paris artıq Ermənistana 24 Bastion tipli zirehli transportyor verib, daha 26-sı isə istehsal mərhələsindədir.

Sənəddə həmçinin bildirilir ki, İrəvan bu yaxınlarda "Thales"-dən üç GM200 radarı sifariş edib və "MISTRAL 3" zenit-raket komplekslərinin tədarükü üçün də danışıqlar aparılır.

Bundan əlavə, Fransa Senatı ölkə hakimiyyətini Cənubi Qafqaz respublikası Ermənistanı "Sezar" özüyeriyən artilleriya qurğusu ilə təmin etmək imkanlarını ən qısa müddətdə araşdırmağa çağırıb: "Ukraynada yol verilən səhvləri təkrarlamamaq və lazımi avadanlıqların tədarükünü gecikdirməmək üçün".

"Biz Ermənistan hakimiyyətinin artilleriya ehtiyacları ilə bağlı bütün müraciətlərinə operativ şəkildə cavab verməliyik", - hesabatda deyilir.

Yada salaq ki, oktyabrda Ermənistan və Fransa hərbi sahədə əməkdaşlıq haqqında sazişlər imzalayıblar ki, bu sazişlər çərçivəsində təkcə silah və hərbi texnikanın tədarükü deyil, həm də Ermənistan hərbçilərinin yenidən hazırlanması nəzərdə tutulur. Parisin Ermənistana hərbi təchizatda marağı nədir, axı rəsmi İrəvan və Fransa hakimiyyətinin bəyanatlarına görə, onlar guya Cənubi Qafqazda sülh axtarırlar. Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- İqor Yuryeviç, qanun layihəsində Ermənistanın ordunu NATO standartlarına uyğun yenidən qurmaq istəyinə birbaşa istinad var...**

- Fransa bütün sahələrdə Ermənistan üçün əsas tərəfdaşdır. Aydındır ki, Paris ən mühüm silah növlərinin tədarükçüsü kimi Rusiyanı əvəz etmək niyyətindədir. Ermənistan həqiqətən də ordunu NATO standartlarına keçirməyə doğru gedir. Bu, tamamilə aydındır. Çünki texniki cəhətdən başqa yolu yoxdur. Fransanın hava məkanına nəzarət edən radarları, eləcə də zenit-raket sistemləri heç bir halda KTMT standartlarının əsasını təşkil edən Rusiya standartları ilə birləşdirilə bilməz. Ən azından İrəvan hərbi inkişaf baxımından Rusiyadan asılılığını ləğv etməyə doğru gedir. Və başa düşməliyik ki, bu, yalnız başlanğıc və ilk addımlardır. Gələcəkdə daha çoxu olacaq.

Əminəm ki, biz tezliklə NATO-nun digər silah növlərinin tədarükü barədə eşidəcəyik. İstənilən NATO avadanlığı Fransanın silah sistemləri ilə aydın şəkildə uyğunlaşacaq. Ermənistan tərəfdən bunlar artıq sadəcə söz deyil, Rusiyanın şantajı deyil, konkret siyasətdir. Amma aydındır ki, bunlar artıq siyasi bəyanatlar deyil, həm Yerevanın, həm də Parisin əməli hərəkətləridir. Məlumatlar var ki, Fransa artıq erməni hərbçiləri hazırlamağa başlayıb. Prosesə start verilib- məsələ NATO ölkələrinin silah təchizatının nə qədər genişlənəcəyidir. Paris bu prosesdə qabaqcıl oldu. Artıq istənilən NATO ölkəsi Ermənistanın silahlanmasına qoşula bilər. Bundan əlavə, Ermənistan və Böyük Britaniya arasında təmasların nəzərəçarpacaq dərəcədə intensivləşməsi müşahidə olunur-bu yaxınlarda ölkələr arasında strateji dialoq platforması yaradılıb və







ötən həftə hərbi əməkdaşlıq planı qəbul edilib. Bütün bu proseslər Ukrayna ətrafında hadisələrin inkişafı ssenarisinin təkrarıdır. Çox şey eyni şəkildə başladı. Onlar Ermənistandan yeni Ukrayna yaratmaq istəyirlər. Bu münaqişələri sinxronlaşdırmaq cəhdi var, Cənubi Qafqazı silkələmək cəhdi var, regionda baş verən müsbət tendensiyaların öz yerini tutmasının qarşısını almaq cəhdi var. Ona görə Fransa Senatı Ermənistanla Ukrayna arasında paralel aparır.

Amma Ermənistandakı bütün bu Qərb siyasəti təkcə Azərbaycana qarşı deyil, onun son məqsədi Rusiyaya, eləcə də İran və Türkiyəyə qarşıdır. Biz başa düşməliyik ki, Ermənistanın Qərb körpüsünə çevrilməsi, eyni zamanda, ölkələrimizə qarşı yönəlib. Bu isə kollektiv təhlükə kimi qəbul edilməlidir. Ölkələrimiz bununla bağlı risk və təhdidləri dəqiq başa düşməlidir. Ermənistandan qurbanlıq qoç kimi istifadə olunacaq.

Və mənim fikrimcə, Fransanın Ermənistana verdiyi hərbi texnikanı qiymətləndirməkdə qeyri-ciddi davranmağa və ya onun keyfiyyətini aşağılamağa ehtiyac yoxdur. "Bastion" tipli zirehli personal daşıyıcılarından danışsaq, bunlar tamamilə müasir hərbi texnika, zirehli döyüş maşınlarıdır. Əsas məsələ, məncə, Ermənistana Qərbdən təchizatların gəlməsidir. Əsas olan budur.

Bu vəziyyətdə ölkələrimizin reallıqları və təhlükələri müzakirə etmək üçün qapalı formatda- ekspert və ya idarələrarası səviyyədə bəzi ümumi məsləhətləşmələr keçirməsi məqsədəuyğun olardı. Bu vacibdir.

**- Ermənistan hakimiyyətinin Azərbaycanla sülhə hazır olduqları barədə bəyanatları İrəvan və Parisin bu yanaşması ilə nə dərəcədə uyğundur?**

- Sülh elan edirlər, amma müharibə haqqında düşünürlər. Necə ki, Ermənistan 30 il Azərbaycan ərazilərini işğal edib özünün qurban olduğunu bəyan edirdi. İrəvanın siyasəti ikiüzlüdür. İrəvanda baş verən hadisələri çox diqqətlə izləmək və gələcək gedişləri proqnozlaşdırmaq lazımdır. Ermənistanın Qərbə dönüşü artıq baş verib, bu, siyasi kursdur. İrəvan bu gün getdikcə daha qeyri-dost mövqe tutur. Dünyada ümumi ağır vəziyyət fonunda hadisələr sürətlənə bilər, ona görə də Ermənistanın siyasətində hər şeyi və onun Qərbə tam dönüş sürətini gözləmək olar. Ermənistanda konkret Qərb hərbi mövcudluğu ilə İrəvan indiyə qədər qüvvədə olan əlaqələri və razılaşmaları tez bir zamanda ləğv edə bilər.

Yeri gəlmişkən, indi biz yeni yaranan Ermənistan müxalifətinin Qarabağ məsələsini yenidən gündəmə gətirmək cəhdlərini görürük. Bu, Qərb üçün sərfəlidir, çünki bu, Azərbaycana təsir rıçaqlarına malik olmaq imkanıdır. Ona görə də müəyyən qüvvələr Qarabağ ermənilərinin məsələsini irəli sürəcək. Və aydındır ki, bu mövzu öz-özünə aradan qalxmayacaq, ən azı, danışıqlarda qeyd olunan informasiya və siyasi sahədə- həm İrəvandan, həm də Ermənistanın kuratorlarından müəyyən qədər siyasi təsir rıçaqlarına sahib olmaq üçün istifadə olunacaq.

**- Avropa İttifaqı son həftələrdə Ermənistanla qarşılıqlı fəaliyyətini xeyli intensivləşdirib. Ölkədə müxtəlif islahatların müxtəlif maliyyələşdirilməsi aparılır, birgə investisiya platformaları yaradılır...**

- Prosesin başlanmasının daha bir sübutu. Əvvəlcə niyyətlərin səsləndirilməsi, sonra səfərlər, daha sonra hərbi, texniki və digər əməkdaşlıqlar gəlir. Ermənistan getdikcə daha çox Qərb strukturları ilə doldurulacaq. Bu tendensiya aydın görünür. Sual olunur- bütün bu "ziyafət" kimin hesabınadır? Ermənistan kifayət qədər kasıb ölkədir. Büdcəsindən silah alacaq, kredit götürəcək, yoxsa xarici hərbi yardımın bir hissəsi kimi alacaq? Aİ Avropa Sülh Fondu vasitəsilə Ermənistana hərbi yardım göstərmək imkanlarını araşdıracağını bildirib.

Ukraynaya pul axır. Əgər Qərb Ermənistandan Ukrayna layihəsinə bənzər bir layihə hazırlamağı zəruri hesab etsə, pul və siyasi iradə olacaq. Onda da hər şeyi gözləmək olar... Qərb Zaqafqaziyada sabitlik və təhlükəsizlikdə maraqlı deyil.

Ermənistana qarşı təhlükələrdən qaçmaq üçün İrəvan Azərbaycanla sülh müqaviləsi imzalamalıdır. Və dövlət sərhədinin delimitasiyası və demarkasiyası həyata keçirilsin. Amma Ermənistan sülh müqaviləsi imzalamaq istəmir. O, Fransanın qucağında oturaraq, mümkünsə Almaniyanı da cəlb edib, ABŞ-a arxalanaraq prosesi yenidən yubatmağa çalışır. Ermənistan və Azərbaycan vasitəçi olmadan razılaşıb sülh müqaviləsi imzalaya bilərlər.

Azərbaycan öz sülh müqaviləsi layihəsini dəfələrlə formalaşdırıb. Hələlik, biz Ermənistandan yalnız siyasi demaqoqiya görürük. Yeri gəlmişkən, ABŞ-ın mövqeyi, təəssüf ki, Cənubi Qafqazda sülh üçün dağıdıcıdır. Bunu Bakı ilə İrəvan arasında baş verən son münaqişə göstərir. ABŞ istərdi ki, Azərbaycan üzərində təsir rıçaqları olsun. Yaxşı, biz ona necə təzyiq edə bilərik, onu Vaşinqtonun bəzi tövsiyələrinə əməl etməyə necə məcbur edə bilərik? Heç bir şəkildə. Və bu, Vaşinqtonun xoşuna gəlmir. Ona görə də Amerika tərəfinin erməni xəritəsindən, Qarabağ ermənilərinin xəritəsindən istifadə etmək cəhdləri var.

Eyni zamanda, anlamaq lazımdır ki, bütün Qərb Ermənistanı dəstəkləmir. Biz Serbiyanın xüsusi mövqeyini, Macarıstanın, İtaliyanın, Bolqarıstanın xüsusi mövqeyini, Cənub Qaz Dəhlizi ilə Azərbaycandan qaz alanların hamısını bilirik.

Vurğulamağı vacib hesab edirəm: bu gün postsovet məkanında hər bir ölkə üçün Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələrin inkişafı ilə paralel olaraq Qərbin müdaxiləsinin qarşısını almaq üçün bacarıqlı daxili təhlükəsizlik nəzarət sisteminə malik olmaq vacibdir. Buna misal kimi müxtəlif fondlar və qrantlar vasitəsilə dövlətlərin daxili işlərinə qarışan bədnam ABŞ Beynəlxalq İnkişaf Agentliyini (USAID) göstərmək olar. Qərb oyunçularına bu formatlardan daxili sabitliyi pozmaq və suveren hökumətlərə təzyiq göstərmək üçün istifadə etmək imkanı verməmək vacibdir. Bu yaxınlarda Bakıda keçirilən MDB-yə üzv dövlətlərin xüsusi xidmət orqanları rəhbərlərinin 53-cü iclasının nəticələri və mənaları belə cəhdlərə ümumi nəzarət üçün çox mühüm formatdır. Birlik ölkələrinin Təhlükəsizlik Şuraları formatında ekspertlər səviyyəsində, praktiki səviyyədə riskləri və təhdidləri qiymətləndirə və onlara cavab verə bilən, məlumat mübadiləsi apara bilən işçi qrupun olması da vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
8 dekabr
2023-cü il

# Dövlət qulluğu nədir - Kimlər dövlət qulluqçusu ola bilər?

***“Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluğu vəzifəsində xidmətdir”.***



**AYDINLIQ GƏTİRİLDİ**

Bunu SİA-ya açıqlamasında dövlət qulluğu üzrə ekspert Səxavət Nəsirov deyib. Ekspertin sözlərinə görə, hazırda dövrün tələblərinə uyğun ən real və etibarlı iş imkanları dövlət qulluğundadır: “Hər bir vətəndaş əmək fəaliyyətinə başlayarkən istəyir ki, etibarlı, uzunmüddətli, maaşı və digər təminatları onu qane edən və ən əsası da rəsmi bir iş tapsın. Eyni zamanda dövlət qulluğu imtahanlarının da mütəmadi olaraq keçirilməsi, bunun nəticəsində xeyli insanın yalnız öz bilik və bacarıqları sayəsində işə qəbul edilməsi insanların dövlət qulluğuna olan etimadını daha da artırır”.

S.Nəsirov qeyd edib ki, dövlət qulluğunda inzibati vəzifələrdə işləmək üçün bizə lazım olan ilk növbədə ali təhsilli olmağımızdır: “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq hər ay test imtahanları keçirilir. Namizədlər test imtahanında iştirak edərək dövlət qulluğu sertifikatı əldə edirlər və bu sertifikatla, həm də ali təhsil ixtisaslarına uyğun müxtəlif dövlət orqanlarında elan edilmiş vakansiyalara müraciət edə bilərlər. Test imtahanını uğurla keçən namizədlər üçün DİM tərəfindən ildə 3-4 dəfə müsahibə elan edilir. Müsahibəni də uğurla keçən namizədlər dövlət qulluğuna qəbul edilirlər”.



Həmsöhbətimiz bildirib ki, son dövrlərdə dövlət qulluğuna marağın artmasının əsas səbəblərindən biri də dövlət sektorunda maaşların artırılmasıdır: “Dövlətin daim diqqət mərkəzində olan məsələlərdən biri də dövlət sektorunda olan əmək haqlarının özəl sektora çatdırılması və istedadlı kadrların dövlət qulluğuna cəlb edilməsidir. Məhz bunun nəticəsidir ki, son 10 ildə dövlət qulluğunda maaşlar təxminən 5-6 dəfə artırılmışdır. Dövlət qulluqçularına verilən maaşlar hətta bir çox özəl sahələrdə verilən maaşdan daha yüksəkdir. Dövlət qulluqçularının təminatlarının yüksəldilməsi, onların potensialından səmərəli istifadə edilməsi və dövlətçiliyimizin inkişafı üçün istedadlı kadrların yetişdirilməsi əsas prioritetlərdəndir hesab olunur”.

Kimlər dövlət qulluqçusu ola bilər?

Müsahibimiz qeyd edib ki, dövlət qulluğuna qəbul inzibati vəzifələr və yardımçı vəzifələr üzrə olmaqla 2 hissəyə bölünür: “Yardımçı vəzifələr dedikdə sürücü, kuryer, kargüzar və digər ali təhsil tələbi olmayan texniki vəzifələr nəzərdə tutulur və həmin vəzifələrin tutulması üçün namizədlər heç bir imtahana cəlb edilmir. İnzibati vəzifələr üzrə dövlət qulluğuna qəbul edilmək üçün ali təhsilli olmaq ən vacib şərt hesab edilir. İnzibati vəzifələr özləri isə icraçı və rəhbər olmaqla 2 hissəyə ayrılır. İcraçı vəzifələrə məsləhətçi, aparıcı məsləhətçi, böyük məsləhətçi, baş məsləhətçi, hakim köməkçisi, məhkəmələrdə iclas katibi və digər vəzifələr aiddir. Rəhbər vəzifələr dedikdə isə şöbə müdiri, şöbə müdirinin müavini, aparat rəhbəri və aparat rəhbərinin müavini, sektor müdiri, bəzi orqanların rəhbərləri, onların müavinləri və digər vəzifələr başa düşülür.

S.Nəsirov sonda bildirib ki, dövlət qulluğuna hazırlaşmaq istəyən namizədlər DİM-in rəsmi internet saytından və digər media subyektlərindən imtahan proqramları, sual nümunələri ilə tanış ola bilərlər: “Amma dövlət qulluğunda işləmək istəyən hər kəsə əsas tövsiyəm odur ki, bu sahəyə olan maraq təkcə maaşa və nüfuza görə olmasın. Əsas məqsədimiz faydalı bir kadr olaraq dövlətimizin inkişafına öz töhfəmizi vermək olmalıdır, biz yalnız belə düşündüyümüz halda daha çox uğur qazana bilərik. Fikirlərimi cənab Prezident İlham Əliyevin bir məşhur kəlamı ilə bitirmək istəyirəm: ”Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır”.

***Rəşid Qarayev***

## Gələn il fevralın 7-si qeyri-iş günü olacaq

Azərbaycanda gələn il fevralın 7-si qeyri-iş günü olacaq. SİA-nın xəbərinə görə, Seçki Məcəlləsinə əsasən, Prezident növbədənkənar prezident seçkilərini elan etdiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir.

Səsvermə günü seçki keçirilən ərazidə iş günü hesab olunmur. Beləliklə, 2024-cü il fevralın 7-si - çərşənbə günü qeyri-iş günü olacaq. Qeyd edək ki, Prezident İlham Əliyev 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında sərəncam imzalayıb.




# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bəzi insanlar niyə evli şəxslə münasibət qururlar?



**ŞOK FAKTLAR**

“Əgər bir insan evli kişi ilə münasibət qurursa, əlbəttə, bilir ki, onun xanımı var və onun həyatında ikinci qadın olur. Bu zaman bilir ki, ikinci qadına o qədər də diqqət ayrılmır, ancaq subay bir oğlanla münasibət qurduqda həmin oğlan ona daha çox diqqət, qayğı və sevgi verir. Ola bilər ki, subay oğlan ona maddi baxımdan nəsə etmir, amma qadın qulağı ilə sevən bir məxluq olduğu üçün ona xoş söz deyən, qayğısına qalan, onunla bütün günü yazışan şəxsi axtarır. Bu gün yazışma dəb halını alıb, bu vəziyyət hətta o dərəcəyə çatıb ki, qadınlar öz övladlarına belə vaxt ayırmayıb, kiminləsə yazışırlar. Ətrafımdakı insanlarda belə bunu görürəm. Belə “analar” var. Subay insan ona daha çox vaxt ayırır”. Bu sözləri SİA-ya psixoloq Gülnar Orucova deyib.

Psixoloq qeyd edib ki, subay oğlanlar da evli qadınlarla münasibətə daha çox üstünlük verirlər, çünki bu onlara hər baxımdan sərf edir: “Bəs subay oğlanlar niyə evli qadınla münasibət qururlar? Məsələn, dünən baş vermiş hadisədə oğlanın evli bir qadınla münasibətdə olduğu ortaya çıxıb. Oğlan 1998-ci il təvəllüdlüdür yəni 24 yaşı var. Qadının qayını evə gəlib və oğlan özünü 13-cü mərtəbədən aşağı atıb. Bəzən deyirlər ki, 25 yaş kamillik dönəmidir, amma indiki oğlanların 25 yaşı olsa da kamillik dönəminə keçid edə bilmirlər. Dünənki hadisədə də oğlan düşünməyib ki, mən 13-cü mərtəbədən özümü atsam, öləcəyəm, amma qapı açılsa, mən ölməyə bilərəm, məsələni izah edib çıxıb gedə bilərəm. Bir oğlan evli qadının evinə girirsə, burada günahı qadında axtarmaq lazımdır, subay oğlanda yox. Çünki oğlan dəvət olunan yerə gəlib”.

”Burada bir məsələ də var, oğlanlar ona görə evli qadınlarla münasibətdə olmağı seçir ki, onlara maddi baxımdan dəstəyə ehtiyac olmur. Bundan başqa oğlan bilir ki, qadın artıq evlidir, sabah, birigün deməyəcək ki, gəl evlənək. Çünki indiki qızlarla münasibət quran kimi deyirlər ki, mütləq mənimlə evlənməlisən. Ona görə, oğlanlara hər baxımdan bu münasibət sərf edir. Bilir ki, evlənək deməyəcək, heç bir maddi istəyi olmayacaq, intim tələbatını da ödəyəcək. Bilir ki, istədiyi vaxt da qadını ata biləcək və o həyat yoldaşının qorxusundan ona nəsə deyə bilməyəcək. Ancaq bir psixoloq olaraq məsləhət görürəm ki, əgər ailənizdə həyat yoldaşınıza qarşı sevginiz, hörmətiniz bitibsə, artıq onunla intim münasibət sizə xoş deyilsə, birmənalı şəkildə boşanın. Sevginin, hörmətin, qayğının, ehtirasın bitdiyi yerdə ailə ola bilməz”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

## ELAN

**Zeynalova Sevinc İbrahim qızına 1990-cı ildə verilmiş Azərbaycan Tibb İnstitutunu bitirməsi haqqında PB N 033545 seriyalı, qeydiyyat N 38, 30.06.1990-cı il tarixli diplomu itmişdir.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**